QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 023 (5495) 6 fevral 2018-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. Qiyməti 40 qəpik


## İlham Əliyev: “Məqsədimiz vətəndaşların həyatını daha da yaxşılaşdırmaqdır”

*Prezident İlham Əliyev beynəlxalq və xarici ölkələrin həmkarlar ittifaqlarının nümayəndə heyətinin bir qrupunu qəbul edib*



Səh 2

### AHİK-in V qurultayı 2018-ci ildə keçiriləcək prezident seçkilərində İlham Əliyevin namizədliyinin irəli sürülməsi haqqında qərar qəbul edib

Bax 3

*Fevralın 5-də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) V qurultayı 2018-ci ildə keçiriləcək növbədənkənar prezident seçkilərində İlham Əliyevin namizədliyinin irəli sürülməsi haqqında qərar qəbul edib. AZƏRTAC xəbər verir ki, AHİK-in V qurultayının nümayəndələri qarşıdakı seçkilərdə namizədliyinin irəli sürülməsinə...*

### “Seçkilərin elan edilməsi Konstitusiyaya tam uyğun bir məsələdir”

Bax 5

*“Növbədənkənar prezident seçkisinin elan edilməsi ölkə Konstitusiyasına tam uyğun bir məsələdir”. Bunu SİA-ya açıqlamasında millət vəkili Aydın Mirzəzadə deyib. Onun sözlərinə görə, seçkinin yazda, yaxud payızda keçirilməsi arasında böyük, kəskin fərq yoxdur: “Digər tərəfdən yaddan çıxarmayaq ki, 2018-ci il Azərbaycan üçün şanlı yubiley ilidir. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illiyidir...”*

### Azərbaycan Hökuməti və BQXK səmərəli əməkdaşlıq edirlər

Bax 6

*Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə insan hüquqlarının, o cümlədən cəmiyyətimizin həssas təbəqəsi olan məhkumların hüquqlarının təmin olunmasına xüsusi diqqət yetirilir, penitensiar sistemdə məqsədyönlü islahatlar aparılır, qanunvericilik təkmilləşdirilir, məhkumların islah prosesində ictimai iştirakçılıq, həmçinin cəmiyyətə yenidən inteqrasiyası məqsədilə cəzadan vaxtından əvvəl...*


Azərbaycanda növbədənkənar Prezident seçkiləri elan edilib



3

Əli Həsənov: “Bu Sərəncam Konstitusiyanın və ölkə qanunvericiliyinin tələblərinə tam uyğundur”



5

“Yeni Azərbaycan Partiyası bu gün də seçkilərə tam hazırdır”



5

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının V qurultayı keçirilib



7

“Azərbaycan jurnalistləri İlham Əliyevi dəstəkləyəcəklər”



5

Çində Azərbaycanın Ticarət Nümayəndəliyinin ofisi açılıb



6

14

“İsa Qəmbərlə Əli Kərimli arasında körpülər yanıb”



14

Rəsul Quliyev-Hüseyn Abdullayev qapışması davam edir



16

“Barselona” rekord sayda məğlubiyyətsiz oyun seriyası nümayiş etdirib



# İlham Əliyev: "Məqsədimiz vətəndaşların həyatını daha da yaxşılaşdırmaqdır"

## *Prezident İlham Əliyev beynəlxalq və xarici ölkələrin həmkarlar ittifaqlarının nümayəndə heyətinin bir qrupunu qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 5-də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının V qurultayında iştirak edən beynəlxalq və xarici ölkələrin həmkarlar ittifaqlarının nümayəndə heyətinin bir qrupunu qəbul edib.***

AZƏRTAC xəbər verir ki, qonaqları ölkəmizdə salamlayan və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının qurultayında iştirak etdiklərinə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev vurğuladı ki, bu, beynəlxalq və xarici ölkələrin həmkarlar ittifaqları ilə Azərbaycan həmkarlar ittifaqları arasında sıx qarşılıqlı fəaliyyəti, həmrəyliyi göstərir. Qurultay həmişə müəyyən işin nəticəsidir, görülən və görüləcək işlərlə bağlı fikir mübadiləsi aparmaq imkanıdır. Dövlətimizin başçısı bu sahədə qarşıda duran məsələlərin hamı üçün eyni olduğunu bildirərək əminliyini ifadə etdi ki, qurultayda müzakirə ediləcək məsələlər və qəbul olunacaq qərarlar ölkəmizin uğurlu inkişafına öz töhfəsini verəcək. Prezident İlham Əliyev dedi: "Hər bir cəmiyyətdə, əlbəttə, o cümlədən Azərbaycanda da həmkarlar ittifaqının rolu artır. Biz vətəndaşlar üçün sosial cəhətdən müdafiə edilmiş əmək şəraiti yaratmağa çalışırıq. Bu, son 15 ildə 5 dəfədən çox artırılan əməkhaqqında və əmək şəraitində də özünü göstərir. Əlbəttə ki, daimi nəzarət və həllini tələb edən məsələlər də diqqət mərkəzindədir. Bu, ilk növbədə, məşğulluqla əlaqədardır". Azərbaycanda son illərdə işsizliyin səviyyəsinin əhəmiyyətli dərəcədə azaldığını, cəmi 5 faiz təşkil etdiyini vurğulayan dövlətimizin başçısı bunu böyük nailiyyət kimi qiymətləndirdi. Təxminən son 15 il ərzində əhalinin sayı 1 milyon yarım nəfər artıb, 1 milyon 400 min isə daimi iş yeri yaradılıb. Buna görə də belə müsbət demoqrafik dinamika əlbəttə ki, bizi həmişə işsizliyin daim aşağı səviyyədə olması üçün yeni iş yerlərinin yaradılması istiqamətində fəal işləməyə məcbur edir. Prezident İlham Əliyev vurğuladı ki, bu qədər iş yerinin yaradılması dövlətin əldə etdiyi ən böyük nailiyyətlərdən biridir. Prezident İlham Əliyev dedi: "Elmi-texniki tərəqqini, avtomatlaşdırmanı, yeni texnologiyaların inkişafını nəzərə alaraq, indi qarşıda yenidən ixtisaslaşma vəzifəsi durur. Bu gün biz bunun üzərində işləyirik. Eləcə də düşünürəm ki, qeyri-leqal məşğulluqla bağlı məsələ ətrafında fikir mübadiləsi aparmaq faydalı olardı. Azərbaycanda işlə məşğul olanların hamısını qeydiyyata götürmək üçün həm inzibati, həm də sistem xarakterli tədbirlər görülür. Əlbəttə, bununla paralel olaraq əməyin ödənilməsinin ölçüləri barədə dəqiq nəzarət və hesabatlılıq da diqqət mərkəzindədir".







Prezident İlham Əliyev bildirdi ki, yalnız həmkarlar ittifaqının qüvvəsi ilə bunları həll etmək mümkün deyil. Burada həm nəzarət, həm də fiskal, vergi, sosial müdafiə və əmək orqanları birgə işləməlidir. Dövlətimizin başçısı qurultayda aparılacaq fikir mübadiləsinin faydalı olacağına əminliyini bildirdi və qurultayın işinə uğurlar arzuladı.

Qonaqlar adından çıxış edən Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının prezidenti Joao Felisio dedi: "Cənab Prezident, fürsətdən istifadə edərək, ilk növbədə, Azərbaycanda əldə olunan nailiyyətlər münasibətilə Sizi təbrik edirəm. Biz, Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyası olaraq ölkənizdə keçirilən bu tədbirdə iştirak etməkdən məmnunluq duyuruq".

Sonra qonaq dünyada gedən mürəkkəb proseslər fonunda həmkarlar təşkilatlarının iş yerləri ilə bağlı fəaliyyətinin əhəmiyyətindən danışdı və bəzi ölkələrdə həmkarlar ittifaqlarının üzvlərinin sayının azalmasının narahatlıq doğurduğunu dedi. Eyni zamanda, zəhmətkeşlərin hüquqlarının müdafiə olunmasının həmişəki kimi Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının qarşısında duran əsas vəzifələrdən biri olduğunu vurğuladı.

**Ardı Səh. 3**



# AHİK-in V qurultayı 2018-ci ildə keçiriləcək prezident seçkilərində İlham Əliyevin namizədliyinin irəli sürülməsi haqqında qərar qəbul edib

***Fevralın 5-də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) V qurultayı 2018-ci ildə keçiriləcək növbədənkənar prezident seçkilərində İlham Əliyevin namizədliyinin irəli sürülməsi haqqında qərar qəbul edib.***

AZƏRTAC xəbər verir ki, AHİK-in V qurultayının nümayəndələri qarşıdakı seçkilərdə namizədliyinin irəli sürülməsinə razılıq verməsi barədə Prezident İlham Əliyevə müraciət ediblər.

# Azərbaycanda növbədənkənar Prezident seçkiləri elan edilib

Prezident İlham Əliyev fevralın 5-də "Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi haqqında" Sərəncam imzalayıb. AZƏRTAC xəbər verir ki, Sərəncamda Mərkəzi Seçki Komissiyasına növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin 2018-ci il aprelin 11-nə təyin olunmasını və Azərbaycan Respublikasının Seçki Məcəlləsində müəyyən edilmiş qaydada keçirilməsini təmin etmək tapşırılıb.



## Rəsmi xronika

Prezident İlham Əliyev Dövlət təltiflərinin hazırlanması ilə bağlı bəzi tədbirlər haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "Azərbaycan Respublikasında əmək münasibətlərinin tənzimlənməsinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 17 mart tarixli 2760 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Təhsil Nazirliyi ilə Türkiyə Ali Təhsil Şurası arasında ali təhsil sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumunun təsdiq edilməsi haqqında Fərman imzalayıb.

***

Dövlətimizin başçısı, həmçinin Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında preferensial ticarət sazişinin imzalanmasına dair Anlaşma Memorandumu və Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında yem bitkiləri toxumunun istehsalı və sertifikatlaşdırılması sahəsində əməkdaşlıq haqqında Sazişi təsdiq edib.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 9 dekabr tarixli 224 nömrəli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiya haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli 941-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli 936-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli 969-VQD nömrəli Qanununun tətbiqi haqqında Fərman imzalayıb.

# İlham Əliyev: "Məqsədimiz vətəndaşların həyatını daha da yaxşılaşdırmaqdır"

*Prezident İlham Əliyev beynəlxalq və xarici ölkələrin həmkarlar ittifaqlarının nümayəndə heyətinin bir qrupunu qəbul edib*

Əvvəli Səh. 2

Digər tərəfdən, dünya əhalisinin sayının artması ilə iş yerlərinin qorunması ilə bağlı qarşıya yeni çağırışlar qoyur. Dünyada varlı və kasıb təbəqələr arasında fərqin artması da narahatlıq doğuran amildir.

Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının prezidenti dedi ki, digər mühüm problemlərdən biri də miqrant məsələsidir. Bu da öz həllini tələb edən problemdir. Qonaq xüsusilə qeyd etdi ki, dünyada baş verən münaqişələr də insanların, xüsusilə aztəminatlı təbəqələrin rifah halına çox mənfi təsir edir. Sonra qonaq dedi: "Mən Sizin gözəl şəhərinizdə olmağımdan çox şadam. Mən öz azərbaycanlı həmkarlarıma da Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının fəaliyyətinə verdiyi töhfəyə görə minnətdarlığımı bildirirəm. Bu gün ölkənizdə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının V qurultayı öz işinə başlayır. Ümidvaram ki, bu tədbirdə iştirakçılar həmkarlar təşkilatları qarşısında duran vəzifələrin həlli istiqamətində fikirlərini bölüşəcəklər".

Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının vitse-prezidenti, Ümumhəmkarlar İttifaqları Konfederasiyasının və Rusiya Müstəqil Həmkarlar İttifaqları Konfederasiyasının prezidenti Mixail Şmakov dedi: "Hörmətli İlham Heydər oğlu, Sizinlə növbəti dəfə görüşməkdən böyük məmnunluq hissi keçiririk. Bizim üçün Sizin öz çıxışınızda qeyd etdiyiniz, bizim hər gəlişimizdə və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının qurultayında iştirak edərkən müşahidə etdiyimiz irəliləyiş və tərəqqini vurğulamaq olduqca xoşdur. Həqiqətən işsizliyin 5 faiz təşkil etməsi böyük nailiyyətdir. Əlbəttə, hamımız istərdik ki, daha az olsun. Biz bu işlərə başlayanda hansı çətinliklərin olduğunu yaxşı xatırlayırıq".

Mixail Şmakov Azərbaycanda ali dövlət orqanları ilə həmkarlar ittifaqı təşkilatları arasında mövcud olan səmərəli qarşılıqlı fəaliyyətin önəmini vurğulayaraq bunun ölkədə ictimai-siyasi sabitliyin təmin olunması işinə böyük töhfə verdiyini qeyd etdi və əldə olunan nailiyyətlərin bir çox ölkələrə nümunə olduğunu bildirdi. Bizim hamımızın qarşısında ümumi problemlərin dayandığını deyən qonaq bunlardan birinin



də qeyri-formal və qanunsuz məşğulluq olduğunu vurğuladı. Qanunsuz məşğulluq bizə ziyan vurur və iqtisadiyyatı daha səmərəli inkişaf etdirməyə imkan vermir. Ona görə də həmin məsələdə biz eyni mövqedən çıxış edirik. Biz çalışmalıyıq ki, dövlətin qanunlarına riayət olunsun, əvvəla hər kəs sosial sistem tərəfindən müdafiə olunsun, digər tərəfdən isə hər kəs bu sosial sistemə öz töhfəsini versin ki, özü də müdafiə olunsun. Buna görə də sizin təcrübəniz bir nümunədir. Biz bundan sonra da hökumətinizlə və həmkarlar ittifaqınızla əməkdaşlığı davam etdirəcəyik.

Xoş sözlərə və Azərbaycanda görülən işlərə verilən qiymətə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev dedi ki, məqsədimiz vətəndaşların həyatını daha da yaxşılaşdırmaq, dövlətin daha güclü və uğurlu olması üçün çalışmaqdır. Buna görə də bizim iqtisadi sahədə apardığımız və indiyə qədər həyata keçirilən bütün islahatlar çox ciddi sosial siyasətlə tənzimlənir. Prezident İlham Əliyev bildirdi ki, bu islahatlar o vaxt səmərəli olur ki, ictimaiyyət onu dəstəkləyir. Buna görə də iş yerlərinin, işləyənlər üçün layiqli iş şəraitinin yaradılması hər zaman bizim siyasətimizin gündəlíyində durur.

Prezident İlham Əliyev qeyd etdi ki, ölkəmizdə çox müsbət demoqrafik dinamika nəzərə alınmaqla yeni iş yerlərinin yaradılması istiqamətində səmərəli iş aparılır. Dövlətimizin başçısı dedi ki, Azərbaycanda son 15 ildə əhalinin sayı 1 milyon yarım artıb və bu artım meyili hələ də davam edir. Bu da öz növbəsində inkişaf etməkdə olan iqtisadiyyatın göstəricisidir. Son 15 il ərzində bizim iqtisadiyyatımız, ümumi daxili məhsul 3,2 dəfə artıb. Hazırda Davos Dünya İqtisadi Forumunun son qiymətləndirməsinə görə, Azərbaycan rəqabətqabiliyyətlilik cəhətdən dünyada 35-ci, inkişaf etməkdə olan ölkələr arasında isə, - orada 80-dək inkişaf etməkdə olan ölkə var, - 3-cü yerdədir. Bu, bizim ölkəmizin potensialını nümayiş etdirir.

Prezident İlham Əliyev bildirdi ki, biz əldə olunan nailiyyətlərlə kifayətlənə bilmərik. Çünki dünyada vəziyyət dəyişir. Qeyri-sabitlik, müharibələr, münaqişələr, qaçqınlar, miqrasiya - bunlar insanlar üçün və bütün bəşəriyyət üçün böyük bəlalardır. Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan bu problemlə iyirmi ildən artıqdır - Ermənistan tərəfindən işğala və etnik təmizləməyə məruz qaldığı dövrdə üzləşib. Bu işğal nəticəsində bir milyona yaxın azərbaycanlı qaçqına və məcburi köçkünə çevrildi. Prezident İlham Əliyev dedi ki, bu kateqoriyadan olan insanlar arasında yoxsulluq, işsizlik səviyyəsi çox yüksək idi. Biz bunu xeyli azalda bildik. Onları layiqli işlə, mənzillərlə təmin etdik. 265 min nəfər dövlət hesabına mənzillə təmin olundu. Bu proses indi də davam edir.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Səttar Möhbalıyev rəhbərlik etdiyi qurumun yaranmasının 25 illiyi münasibətilə medalın təsis olunduğunu bildirdi və bu qurumun İcraiyyə Komitəsinin qərarı ilə həmkarlar təşkilatlarının fəaliyyətinin inkişafına verdiyi dəstəyə görə ilk medalı Prezident İlham Əliyevə təqdim etdi.

"Türk-İş" Həmkarlar İttifaqları Konfederasiyasının baş direktoru Ergün Atalay da dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi. Sonda xatirə şəkli çəkdirildi.

# “Sən istər ictimai xadim ol, istər dövlət xidmətində çalış, sadəcə, insanlığı qoruyub saxlamaq lazımdır”

***Azərbaycanın tərəqqi və inkişafına töhfələr vermək, əməli fəaliyyətin, mütərəqqi baxışların, ölkəyə olan sevginin və bağlılığın məntiqi nəticəsidir. Azərbaycanın sosial-mədəni və iqtisadi inkişafına xidmət edən genişmiqyaslı proqram və layihələrin müəllifi olan Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı Səfiri Mehriban xanım Əliyevanın “Uşaq evləri və internat məktəblərinin inkişafı”, “Yeniləşən Azərbaycana yeni məktəb” proqramları, “Talassemiyasız həyat naminə”, “Təhsilə dəstək”, “Diabetli uşaqlara ən yüksək qayğı”, “Tolerantlığın ünvanı - Azərbaycan” layihələri və digərləri geniş sferanı əhatə edir.***



Dünyada gedən qloballaşma prosesində bu və ya digər layihələr sərhədləri aşaraq, hətta dünya ölkələrində belə həyata keçirilir və qeyri-millətlərin nümayəndələri tərəfindən də yüksək qiymətləndirilir. Mehriban xanım Əliyevanın beynəlxalq səviyyədə gördüyü işlər cavabsız qalmayıb, dünya dövlətləri, nüfuzlu təşkilatlar tərəfindən müxtəlif adlara və mükafatlara layiq görülüb. Onun hər bir uğuru Azərbaycanın nailiyyəti və yüksəkliyidir. Azərbaycanın şifahi xalq ədəbiyyatının və musiqi irsinin qorunub-saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz səylərinə görə YUNESKO-nun Xoşməramlı Səfiri adını daşıması, “İlin qadını” seçilməsi, ictimai, mesenatlıq və xeyriyyəçilik fəaliyyətinə görə, təhsil və mədəniyyət müəssisələrinin dəstəklənməsinə, Rusiya və Azərbaycan xalqları arasında dostluğun möhkəmlənməsinə sanballı töhfələrinə görə Rusiyanın “Yüzilliyin mesenatları” Beynəlxalq Xeyriyyə Fondunun “Yaqut Xaç” ordeninə, sivilizasiyalararası dialoq daxil olmaqla, müxtəlif sahələrdə genişmiqyaslı və fədakar fəaliyyətinə, həmçinin, islam aləmində görülən işlərə böyük dəstəyinə görə İSESKO-nun Xoşməramlı Səfiri adına layiq görülməsi, bəşəriyyətin ali ideallarına xidmət sahəsində yüksək nailiyyətlərinə görə “Qızıl ürək” beynəlxalq mükafatı ilə təltifi əməli fəaliyyətə söykənir. Azərbaycan ilə Polşa arasında dostluq münasibətlərinin inkişafındakı xidmətlərinə görə, Polşa Respublikasının “Xidmətlərə görə” Böyük Komandor Xaçı ordeni ilə, YUNESKO-nun “Qızıl Motsart” medalı ilə, türk dünyası mədəni irsinin zəngin parçası olan Azərbaycan türklərinin maddi və qeyri-maddi mədəniyyət abidələrinin qorunması və təbliği sahəsində böyük xidmətlərinə görə TÜRKSAV-ın “Türk dünyasına xidmət” mükafatına və onlarla belə orden və medallarla təltifi Mehriban xanımın xidmətlərinə olan mükafat və qiymətdir. 2017-ci il dekabrın 26-da isə Moskvadakı Xilaskar İsa Kafedral Kilsə Məbədinin Taxt-tac salonunda Moskvanın və bütün Rusiyanın patriarxı Zati-müqəddəsləri Kirill Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanı II dərəcəli Müqəddəs Məleksima Knyagina Olqa ordeni ilə təltifi “Rus Pravoslav Kilsəsinə yardımına və Həştərxan şəhərinin abadlaşdırılmasına göstərdiyi qayğıya görə” təqdim edilib.

Bu günlərdə Rusiyanın “LIVEJOURNAL” nəşrində Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanı Cənubi Qafqazın ən nüfuzlu xanımı kimi səciyyələndirən məqalə dərc olunub. Məqalədə Mehriban xanım Əliyevanın II dərəcəli Müqəddəs Məleksima Knyagina Olqa ordeni ilə təltif edilməsi qeyd olunur və Onun belə bir yüksək ordenlə təltif olunmasının bir çox əsaslı səbəbi olduğu qeyd edilir. Mehriban xanım Əliyevanın fəaliyyəti və gördüyü işlər araşdırılaraq, təqdim edilir və Azərbaycanın Birinci Xanımının kimliyi, Onu məşhurlaşdıran məsələlərə aydınlıq gətirilir. Məqalədə Mehriban Əliyevanın Cənubi Qafqazın ən nüfuzlu xanımı adlandırıldığını qeyd olunur və Onun artıq bir ilə yaxındır ki, ölkənin Birinci vitse-prezidenti vəzifəsində çalışdığı, insanların bu xanımın müdrikliyinə və gözəlliyinə heyran olduqları diqqətə çəkilir.

Keçdiyi həyat yoluna qısa nəzər salınır və bütün həyatını ictimai fəaliyyətə və insanlara kömək işinə həsr etdiyi vurğulanır. Mehriban xanım Əliyeva deyir: “Həqiqi mərhəmət real işlər görülməsini və konkret addımlar atılmasını tələb edir. Ən dəhşətlisi laqeydlik və biganəlikdir. Bunlar olmamalıdır. Sən istər ictimai xadim ol, istər dövlət xidmətində çalış, sadəcə, insanlığı qoruyub-saxlamaq lazımdır”.

Nəşrdə Mehriban Əliyevanın son altı ildə rəhbərlik etdiyi beynəlxalq oyunlara və yarışlara nəzər salınır. Bakıda keçirilmiş “Eurovision-2012”, 2015-ci ildə ilk Avropa Oyunları, 2017-ci ildə İslam Həmrəyliyi Oyunlarının yüksək səviyyədə təşkilində Mehriban xanım Əliyevanın rolu əvəzsizdir. Təşkilat Komitəsini sədri olaraq, fəaliyyəti bu tədbirlərin tarixinə yeni səhifə açımış oldu.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti kimi ilk olaraq onun sədrliyi ilə Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr olunmuş müşavirə keçirildi. Müşavirədə qaçqın və məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi, yaşayış şəraitinin yaxşılaşdırılması ilə bağlı ardıcıl və məqsədyönlü tədbirlərin həyata keçirildiyi diqqətə çatdırıldı. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva mövcud problemlər olduğunu və qısa zamanda həll etmək üçün birgə çalışmağın vacibliyini bildirmişdi: “Bu gün bizim qarşımızda duran əsas məqsəd dörd min köçkün ailəsini yeni mənzillə təmin etməkdir. Söhbət Bakı və Sumqayıt şəhərlərində məskunlaşan köçkün ailələrindən gedir. Dediyim kimi, biz işlərimizi iki istiqamətdə qurmalıyıq. Yeni mənzillər, yeni binalar tikilməlidir və inşa olunan yeni binalar keyfiyyət standartlarına tam cavab verməlidir”. Bəli, öz işinə məsiuliyyəti ilk günlərdən diqqətləri cəlb edir.

Mehriban xanım Əliyevanın uğurları təkcə siyasi və ictimai fəaliyyətlə məhdudlaşmır. “O, həm də qayğıkeş həyat yoldaşı və üç övlad böyüdən xoşbəxt anadır” - yazan müəllif Mehriban xanımın öz ailəsini çox sevdiyini və həmişə onun yanında olmağa çalışdığını qeyd edərək, məhz ailə dəyərləri birinci yerdə olmalıdır”, deyə vurğulayır.

“Bütün bunlara və bir sıra başqa səbəblərə görə, Mehriban Əliyeva elə bir siyasətçidir ki, dünyanın hər yerində onun haqqında danışırlar və danışmaq istəyirlər”, - deyə fikirlərinə davam edərək, Mehriban Əliyevanın hazırda karyerasının zirvəsində olduğunu bildirir: “Lakin onun xarakterini, özünə inamını və son dərəcədə dözümlü olmasını nəzərə alaraq, cəsarətlə deyə bilərik ki, kamilliyin son həddi yoxdur. Mehriban xanımın Azərbaycanda, Rusiyada və dünyanın digər ölkələrində inanılmaz dərəcədə populyarlığı əsl fenomendir. Onun Rus Pravoslav Kilsəsi isə Onun gördüyü xeyirxah işləri ordenlə mükafatlandırıb”.

Göründüyü kimi, Azərbaycanın Birinci Xanımının həyata keçirdiyi layihələr təkcə Azərbaycanda deyil, beynəlxalq aləmdə Mehriban xanım Əliyevanın böyük nüfuz qazandığını göstərir. Mehriban xanım Əliyeva, həqiqətən, gördüyü işlərlə kimliyini, böyüklüyünü gördüyü işlərlə reallaşdırır. Həyat və vəzifə missiyası bir etalon olaraq cəmiyyətə təqdim olunur.

***Nəzakət ƏLƏDDİNQIZI***

## Əli Həsənov: "Bu Sərəncam Konstitusiyanın və ölkə qanunvericiliyinin tələblərinə tam uyğundur"



Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov "Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamını şərh edib. SİA-nın verdiyi məlumata görə, Əli Həsənov bildirib ki, bu günədək Azərbaycanda bütün seçkilər Konstitusiya normalarına, Seçki Məcəlləsinə və digər aidiyyəti qanunvericilik aktlarına uyğun olaraq demokratik, şəffaf və ədalətli şəkildə keçirilib. İstər prezident, istər parlament, istərsə də bələdiyyə seçkiləri xalqın iradəsini əks etdirib, həmçinin yerli və beynəlxalq müşahidəçilər tərəfindən yüksək qiymətləndirilib. Bilirsiniz ki, Azərbaycanda hər 5 ilin 3 ili seçkilərlə bağlı olduğundan Konstitusiyanın 101-ci maddəsinə dəyişiklik edildi və dövlət başçısının səlahiyyət müddəti 5 ildən 7 ilə uzadıldı. Prezidentin səlahiyyət müddəti 7 il müddətinə uzadıldığına görə, Azərbaycan Respublikası Prezidentinə seçicilərə etimad votumu üçün müraciət imkanı - növbədənkənar prezident seçkilərini elan etmək hüququ verilib. Buna görə də "Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi haqqında" Sərəncamda nəzərdə tutulmuş məsələlər Konstitusiyanın və ölkə qanunvericiliyinin tələblərinə tam uyğundur.

Prezidentin köməkçisi qeyd edib ki, Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq 2018-ci il prezident seçkilərinin payızda - oktyabr ayında keçirilməsi nəzərdə tutulmuşdu. Ancaq bu il may ayından başlayaraq ölkəmizdə çoxlu sayda mühüm yerli və beynəlxalq səviyyəli tədbirlər keçiriləcəkdir. Onların sırasında Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illiyi çərçivəsində silsilə tədbirləri, Beynəlxalq Humanitar Forumu və digərlərini qeyd etmək olar. Həmin tədbirlərin əksəriyyəti ilin sonuna təsadüf edir və seçkilərlə üst-üstə düşür. Digər tərəfdən, Azərbaycanda mövcud olan praktikaya əsasən, bütün seçkilər payız aylarında keçirilir. Bu mənada, dünyada mövcud olan təcrübəni nəzərə almaqla, müxtəlif səviyyəli seçkilərin ilin ayrı-ayrı fəsillərində, o cümlədən də əvvəlində keçirilməsi daha məqsədəuyğundur. Həmçinin Azərbaycan Prezidentinin 7 il müddətinə seçilməsi prezident səlahiyyətlərinin yerinə yetirilməsinə təsərrüfat ilinin əvvəlindən başlamasını təmin edir. Bu da sosial və iqtisadi sahədə qarşıda duran vəzifələrin daha effektli icrasına əlavə imkan yaradır.

Əli Həsənov deyib ki, ötən dövr ərzində Prezident İlham Əliyevin yürütdüyü müstəqil siyasət Azərbaycanın milli maraqlarına xidmət edib, ölkənin hərtərəfli və sürətli inkişafı təmin olunub, cəmiyyət həyatının bütün sahələri yeniləşib və müasirləşib, xalqın rifahı yüksəlib. Bu gün Azərbaycan beynəlxalq birliyin böyük nüfuza malik ölkələrindən biri kimi tanınır. Bütün bunlar Azərbaycan xalqının, vətəndaşların, seçicilərin Prezident İlham Əliyevə yüksək etimadını və tam dəstəyini şərtləndirən başlıca amillərdir. Əminliklə demək olar ki, cənab İlham Əliyevin seçkilərdə növbəti dəfə parlaq qələbə qazanmaq və yenidən prezident seçilmək imkanı çox yüksəkdir. Nəticə etibarilə, seçkilərin oktyabrda və ya apreldə keçirilməsi potensial namizədlərin, o cümlədən də cənab İlham Əliyevin imkanlarını məhdudlaşdıran və onlara əlavə dividend qazandıran hal kimi şərh oluna bilməz.

## "Seçkilərin elan edilməsi Konstitusiyaya tam uyğun bir məsələdir"



"Növbədənkənar prezident seçkisinin elan edilməsi ölkə Konstitusiyasına tam uyğun bir məsələdir". Bunu SİA-ya açıqlamasında millət vəkili Aydın Mirzəzadə deyib. Onun sözlərinə görə, seçkinin yazda, yaxud payızda keçirilməsi arasında böyük, kəskin fərq yoxdur: "Digər tərəfdən yaddan çıxarmayaq ki, 2018-ci il Azərbaycan üçün şanlı yubiley ilidir. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illiyidir. Bu, təkcə respublikamızın yaranmasının bir əsrlik tarixi deyil, eyni zamanda parlamentimizin yaranmasının, ordumuzun, dövlət bayrağımızın qəbul edilməsinin yüz illiyidir. Azərbaycan cəmiyyəti bütün il bu tədbirlərin yüksək səviyyədə keçirilməsi, Azərbaycan dövlətçiliyinin tarixə, müasir dövrə bağlılığını göstərəcək tədbirlərlə məşğul olacaq. Bu baxımdan seçkinin öncədən keçirilməsi cəmiyyətin diqqətinin bu tip tədbirlərə yönəlməsinə şərait yaradacaq. Əks halda cəmiyyət həm prezident seçkisinə hazırlığa, eyni zamanda yüz illiklə bağlı tədbirlərin keçirilməsinə diqqət ayırmalı idi".

## Qrigori Osovoy: "Azərbaycanda xalq-hakimiyyət birliyi var"



Azərbaycanda xalq-hakimiyyət birliyi var. Azərbaycan dövləti insanların həyatını yaxşılaşdırmağı özünün əsas məqsədi hesab edir. Bu ölkədə iqtisadi, sosial, idman sahələrində və digər sahələrdə inkişaf aydın görünür. Bu inkişaf təqdirəlayiqdir. Biz Prezident İlham Əliyev ilə görüşümüz zamanı Azərbaycanın dinamik inkişafı barədə eşitdiklərimizin şahidi olduq.

AZƏRTAC xəbər verir ki, bu fikirləri fevralın 5-də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının V qurultayında iştirak edən Ukrayna Həmkarlar İttifaqları Federasiyasının sədri Qrigori Osovoy jurnalistlərə müsahibəsində deyib.

Sədr vurğulayıb ki, Azərbaycanın ərazisinin bir hissəsi işğal altında olsa da, ölkədəki sabitlik inkişafa müsbət təsir edir. Dünya iqtisadiyyatının çətin vəziyyətlə üzləşməsinə baxmayaraq, Azərbaycanda işsizliyin səviyyəsi minimuma endirilib, əməkhaqqı mütəmadi olaraq artırılır. Bu, ölkənin iqtisadi inkişafının daha bir göstəricisidir.

## "Yeni Azərbaycan Partiyası bu gün də seçkilərə tam hazırdır"



"Növbədənkənar prezident seçkilərinin keçirilməsi Azərbaycan Prezidentinin səlahiyyətinə aid olan məsələdir." Bunu Trend-ə Yeni Azərbaycan Partiyası (YAP) İcra katibinin müavini, Milli Məclisin deputatı Siyavuş Novruzov deyib. S.Novruzov bildirib ki, 2016-cı il sentyabrın 26-da Konstitusiyaya dəyişikliklərlə bağlı referendum keçirilərkən Prezidentə növbədənkənar prezident seçkiləri elan etmək hüququ verildi və xalq da yekdilliklə bu məsələyə səs verdi: "Bu məsələ, həmçinin Seçki Məcəlləsində öz əksini tapıb. Bu baxımdan da növbədənkənar prezident seçkilərinin keçirilməsi dövlət başçısının səlahiyyətinə daxil olan bir məsələdir. Prezident nə vaxt zəruri hesab edirsə, o zaman da belə bir qərar qəbul edir. İndi də cənab Prezident zəruri hesab etdi ki, bu il prezident seçkiləri oktyabrda deyil, aprelin 11-də keçirilsin və bununla bağlı sərəncam imzaladı".

S.Novruzov vurğulayıb ki, YAP adətən seçkilərə hazırlığa bir il qabaqcadan başlayır və kifayət qədər seçki təcrübəsi var: "Yeni Azərbaycan Partiyası bu gün də seçkilərə tam hazırdır və namizədini irəli sürüb qələbə əldə edə bilər". YAP İcra katibinin müavini deyib ki, Azərbaycanda azad, ədalətli, demokratik və şəffaf seçkilər keçirilməsi üçün əlverişli mühit var, qanunlar buna imkan verir və kim istəyirsə, namizədliyini irəli sürülə bilər.

Qeyd edək ki, Prezident İlham Əliyev növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, növbədənkənar prezident seçkiləri 2018-ci il aprelin 11-nə təyin olunub.

## "Beynəlxalq həmkarlar ittifaqlarının rəhbərləri Azərbaycandakı islahatları yüksək qiymətləndirirlər"



Beynəlxalq həmkarlar ittifaqlarının rəhbərləri Azərbaycanda gedən iqtisadi islahatları yüksək qiymətləndirirlər. Onlar bu barədə fevralın 5-də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) V qurultayında da fikirlərini bildirdilər.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev jurnalistlərə müsahibəsində deyib.

AHİK sədri qeyd edib ki, bugünkü qurultayda 80-dən çox xarici həmkarlar təşkilatından qonaqlar iştirak ediblər. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası 5 il ərzində gördüyü işlər haqqında qurultay nümayəndələri qarşısında hesabat verdi. Prezident İlham Əliyev qurultayında iştirak edən beynəlxalq və xarici ölkələrin həmkarlar ittifaqlarının nümayəndə heyətinin bir qrupunu qəbul etdi. Qonaqlar görüş zamanı da Azərbaycanda həmkarlar ittifaqı təşkilatlarının fəaliyyəti barədə müsbət fikirlərini bildirdilər.

## "Azərbaycan jurnalistləri İlham Əliyevi dəstəkləyəcəklər"



"2018-ci il ölkəmizdə Prezident seçkiləri ilidir. Cənab Prezidentin bu gün imzaladığı Sərəncam dövlətimiz və xalqımız üçün son dərəcə mühüm əhəmiyyət daşıyan bu prosesi 6 ay tezləşdirir". SİA-nın verdiyi xəbərə görə, bu haqda məlumatı Mətbuat Şurasının sədri, millət vəkili Əflatun Amaşov özünün "facebook" səhifəsində paylaşıb. "Hesab edirəm, bu tezləşdirmə Azərbaycan naminə görüləcək işlərin sürətləndirilməsinin vacibliyi mesajıdır. Mesajın müəllifi olan cənab İlham Əliyevin 11 aprel seçkisində qələbə qazanaraq qarşıdakı 7 il müddətində Azərbaycana rəhbərlik edəcəyinə əminəm. Ona da əminəm ki, Azərbaycan jurnalistləri hər zaman olduğu kimi, yenə də cənab İlham Əliyevi dəstəkləyəcəklər"-deyə, MŞ sədri fikrini tamamlayıb.

## Joao Felisio: "Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafına heyran qalmamaq mümkün deyil"



Prezident İlham Əliyevin bizi qəbul etməsi mənə çox gözəl təsir bağışladı. Bu, vətəndaş cəmiyyəti ilə hökumət arasında dialoqun göstəricisidir. Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafına heyran qalmamaq mümkün deyil.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının prezidenti Joao Felisio jurnalistlərə müsahibəsində deyib.

"Heç bir ölkədə prezident həmkarlar ittifaqları işçilərini qəbul etmir", - deyən Joao Felisio Prezident İlham Əliyevin bu addımının Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafının daha bir göstəricisi olduğunu qeyd edib.

Azərbaycana ilk dəfə səfər etdiyini deyən Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının prezidenti ölkəmizin tarixi və mədəniyyəti ilə yaxından maraqlandığını bildirib.

# Azərbaycan Hökuməti və BQXK səmərəli əməkdaşlıq edirlər

***Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə insan haqlarının, o cümlədən cəmiyyətimizin həssas təbəqəsi olan məhkumların hüquqlarının təmin olunmasına xüsusi diqqət yetirilir, penitensiar sistemdə məqsədyönlü islahatlar aparılır, qanunvericilik təkmilləşdirilir, məhkumların islah prosesində ictimai iştirakçılıq, həmçinin cəmiyyətə yenidən inteqrasiyası məqsədilə cəzadan vaxtından əvvəl şərti azad etmə institutu geniş tətbiq olunur. Eyni zamanda, beynəlxalq qurumlar və yerli qeyri-hökumət təşkilatları ilə səmərəli əməkdaşlıq aparılır, penitensiar müəssisələrə başçəkmələr edilir, məhkumların hüquqlarının qorunmasının və saxlanma şəraitinin monitorinqi həyata keçirilir, onlara hüquqi yardım göstərilir.***




Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, 2000-ci ildən Azərbaycan Hökuməti ilə Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) arasında imzalanmış Sazişə əsasən Komitə nümayəndələri mütəmadi olaraq, azadlıqdan məhrumetmə yerlərinə, o cümlədən penitensiar müəssisələrə maneəsiz baş çəkir, məhkumlarla təkbətək görüşlər keçirir, bu sahədə işin təkmilləşdirilməsinə töhfələr verirlər.

Həmin Sazişin məhkumlar və təqsirləndirilən şəxslərin hüquqlarının təminatına, işgəncələrə və pis rəftarın digər hallarının qarşısının alınmasına xidmət edəcəyi nəzərə alınaraq dövlət başçısı siyasi iradəsini nümayiş etdirərək Sazişin müddətinin uzadılması ilə bağlı xüsusi Sərəncam imzalayıb.

Bununla əlaqədar fevralın 5-də Ədliyyə Nazirliyində Azərbaycan Hökuməti və BQXK arasında müvafiq sənədin imzalanması mərasimi keçirilib.

Azərbaycan Hökuməti adından Sazişin müddətinin uzadılmasına dair Protokolu ədliyyə naziri Fikrət Məmmədov və BQXK-nın Azərbaycandakı Nümayəndəliyinin rəhbəri xanım Elena Aymone Sessera imzalayıblar.

Mərasimdə Azərbaycan ilə BQXK arasında əlaqələrin inkişafından məmnunluq ifadə olunub. Tədbirin Komitənin təsis olunmasının 155 illiyinə təsadüf etdiyi diqqətə çatdırılaraq Sazişin qüvvəsinin uzadılmasının qarşılıqlı fəaliyyətə əlavə təkan verdiyi vurğulanıb.

Nazir dövlətimizin başçısının cəza siyasətinin humanistləşdirilməsinə dair 2017-ci il 10 fevral tarixli Sərəncamının icrası üzrə görülən tədbirlərdən bəhs edib. Bildirib ki, insanların azadlıq hüququnun qorunması, azadlıqdan məhrumetməyə alternativ cəzaların tətbiqinin genişləndirilməsi məqsədilə cəza-icra qanunvericiliyi xeyli humanistləşdirilib, probasiya nəzarəti təsbit olunub, cəzaların icrası zamanı elektron qolbaqların tətbiqi üzrə tədbirlər görülüb.

Həmçinin Cinayət Məcəlləsinə edilmiş mühüm dəyişikliklərlə bir çox cinayətlərin dekriminallaşdırılması yüzlərlə məhkumun cəzalardan azad olunmasına və ya yüngülləşdirilməsinə səbəb olub.

Nazir ölkə rəhbərinin siyasi iradəsinə əsasən Azərbaycanda işgəncələrə qarşı qəti dözümsüzlük nümayiş etdirildiyini, 10 fevral tarixli Sərəncamın həm də cəzaçəkmə yerlərində pis rəftarın növü olan sıxlığın qarşısının alınmasına xidmət etdiyini vurğulayaraq, bu sahədə yerli və beynəlxalq təşkilatlar tərəfindən aparılan monitorinqlərin əhəmiyyətini qeyd edib.

Xanım E.Sessera son dövrlər penitensiar sistemdəki islahatları, cəza siyasətinin humanistləşdirilməsi, azadlıqdan məhrumetməyə alternativ cəzaların tətbiqi üzrə görülən tədbirləri təqdir edib, BQXK-nın ədliyyə sahəsində əməkdaşlığının səmərəliliyini xüsusi vurğulayıb, Komitə üzvlərinə penitensiar müəssisələrə baş çəkmək üçün hər cür şərait yaradılmasından məmnunluğunu söyləyib. Qonaq faydalı və məhsuldar əməkdaşlığa görə Azərbaycan Hökumətinə minnətdarlığını ifadə edib.

Görüşdə, həmçinin BQXK ilə uzun illər məhkumlara yüksək ixtisaslı tibbi yardımın göstərilməsi sahəsində uğurlu əməkdaşlıqdan məmnunluq bildirilib. Qeyd olunub ki, məhkumlar arasında vərəmə qarşı mübarizə üzrə birgə fəaliyyət çox müsbət nəticələr verib, cəzaçəkmə müəssisələrində vərəmə yoluxma hallarının sayında ilbəil kəskin azalma müşahidə olunub, vərəmdən ölüm 105 dəfə azalıb. Azərbaycanın bu sahədə nailiyyətlərinə maraq artaraq son illər 17 ölkədən 200-dən çox nümayəndə ölkəmizə səfərlər edib və qabaqcıl təcrübəmizlə tanış olublar.

Tədbirdə iştirak edən vətəndaş cəmiyyətinin nümayəndələri, hüquq-müdafiə təşkilatlarının rəhbərləri ədliyyə fəaliyyətinin təkmilləşdirilməsi üzrə görülən tədbirləri yaxından izlədiklərini, penitensiar sistemdə ictimai nəzarət mexanizmlərinin səmərəli tətbiqini vurğulayıb, imzalanan sənədin qarşılıqlı fəaliyyətə töhfə verəcəyinə əminliklərini söyləyiblər. Tədbirdə əməkdaşlığın perspektivləri barədə faydalı fikir mübadiləsi aparılıb.

# Ukrayna saytında 31 mart - “Azərbaycanlıların Soyqırımı Günü”nə həsr edilmiş məqalə dərc olunub


ВЕРСИИ.COM

Пропитана кровью историческая правда о вековом геноциде азербайджанцев



Ukraynanın Versii.com saytında həmvətənimiz, hüquq elmləri doktoru, Kiyev Milli Aviasiya Universitetinin beynəlxalq hüquq kafedrasının professoru, Ukraynanın Əməkdar təhsil işçisi Arif Quliyevin 31 mart - “Azərbaycanlıların Soyqırımı Günü”nə həsr edilmiş məqaləsi dərc edilib. AZƏRTAC xəbər verir ki, məqalədə erməni millətçilərinin Azərbaycan xalqına qarşı yürütdüyü soyqırımı və təcavüz siyasətinin 200 illik tarixə malik olması qeyd olunur. 1918-ci il martın 30-31-də bədnam Bakı kommunasının başçıları və şovinist ermənilər müsəlman əhaliyə qarşı tarixdə görünməmiş qırğın törədiblər.

Həmin il martın 30-da səhər erməni-bolşevik dəstələri şəhəri hərbi gəmilərdən atəşə tutdular. Artilleriya atəşindən sonra silahlı daşnaklar azərbaycanlıların evlərinə soxularaq, onları amansızcasına qətlə yetirməyə başladılar. Martın 31-dən aprelin 1-nə keçən gecə azərbaycanlı əhaliyə qarşı qırğın kütləvi xarakter aldı. Üç gün ərzində Bakıda 17 min nəfər öldürüldü. Şamaxı, Şuşa, Quba, Muğan, Lənkəran və digər bölgələrdə on minlərlə insan məhv edildi.

Yalnız bu dəhşətli hadisələrdən 80 il keçəndən sonra - 1998-ci il martın 26-da Azərbaycan Respublikasının Prezidenti, xalqımızın ümummilli lideri Heydər Əliyevin imzaladığı “Azərbaycanlıların Soyqırımı haqqında” fərmana əsasən martın 31-i Azərbaycanlıların Soyqırımı günü elan edildi. Bu, erməni millətçilərinin hərəkətlərinə verilən ilk dolğun və hərtərəfli hüquqi-siyasi qiymət oldu. Məqalənin müəllifi, professor Arif Quliyev yazır: “Azərbaycan rəhbərliyinin siyasi iradəsi, xalqımızın vətənpərvərliyi, milli birliyi və məqsədyönlü fəaliyyəti nəticəsində azərbaycanlılar qarşıya qoyulan məqsədə, o cümlədən ərazi bütövlüyü və suverenliyin bərpasına, əsrlər boyu əsl soyqırımını həyata keçirənləri, insanlar və xalqlar arasında nifrət və düşmənçiliyi təbliğ edənləri ifşa etməyə nail olacaqlar”.

## Çində Azərbaycanın Ticarət Nümayəndəliyinin ofisi açılıb

Fevralın 5-də Çinin paytaxtı Pekin şəhərində Azərbaycanın Ticarət Nümayəndəliyinin ofisinin rəsmi açılışı olub. Bununla bağlı keçirilmiş mərasimdə iqtisadiyyat naziri Şahin Mustafayevin rəhbərliyi ilə Çində səfərdə olan Azərbaycan nümayəndə heyəti və Çin rəsmiləri iştirak edib.



AZƏRTAC xəbər verir ki, nazir Şahin Mustafayev Azərbaycan-Çin iqtisadi əlaqələrinin inkişaf etdiyini, Çinin ölkəmizin əsas ticarət tərəfdaşlarından olduğunu və 2017-ci ildə ölkələrimiz arasında ticarət dövriyyəsinin 1,2 milyard ABŞ dolları olmaqla, 43 faiz artdığını vurğulayıb. Çin Azərbaycanın ticarət tərəfdaşları sırasında ticarət dövriyyəsinə görə 4-cü, ixracda 8-ci, idxalda isə 3-cü ölkədir. Azərbaycanda Çin kapitallı 100-dən çox şirkət fəaliyyət göstərir, bu şirkətlər müxtəlif layihələrdə uğurla iştirak edirlər. Ölkəmiz Çin Xalq Respublikası ilə investisiya sahəsində də uğurlu əməkdaşlıq edir. 2016-cı və 2017-ci illərdə Çinə 3 ixrac missiyası təşkil edilib, Azərbaycan məhsulları Çində keçirilmiş 2 sərgidə “Made in Azerbaijan” vahid ölkə stendi ilə nümayiş olunub. Azərbaycan bu il Çində keçiriləcək daha 3 sərgidə iştirak edəcək. İndiyədək Azərbaycan və Çin iş adamlarının iştirakı ilə 8 biznes-forum keçirilib. Nazir Şahin Mustafayev qeyd edib ki, bu gün Pekində Azərbaycanın Çindəki Ticarət Nümayəndəliyinin ofisinin açılması ölkələrimiz arasında iqtisadi-ticarət əlaqələrinin inkişafında önəmli olacaqdır. Bildirilib ki, nümayəndəlik ölkəmizin qeyri-neft ixracının genişləndirilməsi, “Made in Azerbaijan” brendinin, əlverişli biznes və investisiya mühitinin təşviqi və Çin investisiyalarının cəlb olunması, habelə Azərbaycan şirkətlərinin Çində iqtisadi maraqlarının qorunması və müxtəlif məsələlərlə bağlı Azərbaycan sahibkarlarına dəstək göstərilməsi baxımından əhəmiyyətlidir. Sonra tədbir iştirakçıları Azərbaycan Ticarət Nümayəndəliyinin ofisi ilə tanış olublar.

## “Eurasia Hoy” portalı: “Azərbaycan-Meksika: müxtəlif sahələrdə ikitərəfli əməkdaşlıq”

Amerikanın ispandilli “Eurasia Hoy” xəbər portalı amerikalı siyasi icmalçı Piter Teyzin Meksikanın Azərbaycandakı səfiri Rodriqo Labardini ilə müsahibəsini dərc edib. “Azərbaycan-Meksika: müxtəlif sahələrdə ikitərəfli əməkdaşlıq” adlı məqalədə iki ölkə arasında siyasi və iqtisadi əlaqələrin genişlənməsindən bəhs olunur. Müsahibədə səfir Labardini təhsil, elm, gənclər, mədəniyyət və idman sahələrində əməkdaşlığa dair 2017-ci il oktyabrın 20-də imzalanan hökumətlərarası sazişin əhəmiyyətini xüsusi qeyd edib.




Məqalədə bildirilir ki, Azərbaycan ilə Meksika arasında 2015-ci ildə ticarət əlaqələrinin həcmi 22 milyon dolları ötüb, 2016-cı ildə isə ticarət dövriyyəsi 21 milyon dollardan çox olub. Bu, 1993-2015-ci illərdə qeydə alınan orta göstəricini 1,5 milyon dollar üstələyir.

Səfirin sözlərinə görə, Azərbaycan ilə Meksika arasında əməkdaşlığın inkişafının əsas yollarından biri elm və mədəniyyət sahələrində mübadilənin aparılmasıdır. Bu kontekstdə səfirliyin musiqi, rəssamlıq, qastronomiya, heykəltəraşlıq, rəqs və digər sahələrdə keçirdiyi mədəni tədbirləri xüsusilə qeyd etməyə dəyər. Piter Teyz məqaləsində yazır ki, Meksika və Azərbaycan energetika sahəsində də əməkdaşlıq edirlər. Məsələn, Meksika Neft İnstitutunun nümayəndələri Bakıda səfərdə olarkən azərbaycanlı həmkarları ilə görüşüblər. Həmin görüşlərdə hər iki tərəf neft sektorunda əməkdaşlığın inkişafında maraqlı olduqlarını bildirib.

# Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının V qurultayı keçirilib

***Fevralın 5-də Bakı Konqres Mərkəzində Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) V qurultayı keçirilib.***

AZƏRTAC xəbər verir ki, qurultayda Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov, əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov, sahə həmkarlar ittifaqları təşkilatlarından 1300-dək nümayəndə, dövlət və hökumət rəsmiləri, eləcə də 30 ölkədən 85 nəfər beynəlxalq həmkarlar ittifaqı liderləri və fəalları iştirak ediblər.

Qurultayı AHİK-in sədri, Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının (BHİK) və Pan Avropa Regional Şurasının (PARŞ) vitse-prezidenti, Milli Məclisin deputatı Səttar Möhbalıyev açıb.

Sonra Azərbaycan Respublikasının dövlət himni səsləndirilib.

Reqlamentə uyğun olaraq, qurultayın gündəliyi təsdiq edilib və rəhbər orqanlarının - rəyasət heyətinin, redaksiya, mandat və hesablayıcı komissiyaların tərkibi və katibliyin üzvləri seçilib.

Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov dövlətimizin başçısı İlham Əliyevin qurultay iştirakçılarına təbrik məktubunu oxuyub.

Səttar Möhbalıyev Prezident İlham Əliyevin qurultay iştirakçılarına təbrik məktubuna və həmkarlar ittifaqları təşkilatlarının 114 üzvünün təltif olunması barədə sərəncamlarına görə AHİK-in üzvləri adından dövlətimizin başçısına minnətdarlığını bildirib.

Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının prezidenti Joao Felisio, Rusiya Müstəqil Həmkarlar İttifaqları Federasiyasının prezidenti Mixail Şmakov, əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev, Pan Avropa Regional Şurasının prezidenti İrakli Petaraşvili, "Türk-İş" Həmkarlar İttifaqları Konfederasiyasının sədri Ergün Atalay, Türkiyənin "Hak-İş" Həmkarlar İttifaqları Konfederasiyasının sədri Mahmud Aslan, Kamu-Sen Həmkarlar İttifaqları Konfederasiyasının sədri İsmayıl Koncuk, Məmur-Sen Həmkarlar İttifaqları Konfederasiyasının sədri Əli Yalçın, Avrasiya Kənd Təsərrüfatı və Qida Sənayesi İşçiləri Həmkarlar İttifaqları Federasiyasının sədri Cemail Bakındı çıxış edərək təbriklərini çatdırıblar.

Sonra Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov çıxış edib. O deyib ki, bu il aprelin 11-də Azərbaycanda növbədənkənar prezident seçkiləri keçiriləcək. Bu seçkilər həmkarlar ittifaqları qarşısında vəzifələr qoyur. Bilirik ki, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının qurultaylarında həmişə İlham Əliyevin




prezidentliyə namizədliyini irəli sürürsünüz. Bu dəfə də bütün həmkarlar ittifaqları işçilərini İlham Əliyevin prezidentliyə namizədliyini dəstəkləməyə çağırıram.

Prezidentin köməkçisi qeyd edib ki, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının növbəti qurultayı ölkəmizin sosial-iqtisadi inkişafının keyfiyyətcə yeni - dərin islahatlarla səciyyələnən yüksəliş mərhələsinə qədəm qoyduğu, cəmiyyətimizin ictimai-siyasi və mədəni həyatında dinamik proseslərin getdiyi, xalqımızın tarixinin həm acı, həm də əlamətdar hadisələrini qeyd etməyə hazırlaşdığımız bir dövrə təsadüf edir. Bu ilin mayında Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının100 ili, ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 ili tamam olur. Gələn ay isə Azərbaycan xalqının məruz qaldığı ağır faciələrdən birinin - erməni millətçiləri tərəfindən 1918-1920-ci illərdə törədilən soyqırımının da 100-cü ildönümüdür. Bu il ölkəmizin həyatında həm də çox mühüm siyasi kampaniya - Prezident seçkiləri keçiriləcək. Aydındır ki, həmkarlar ittifaqları təşkilatları da ölkə həyatının ümumi axarından kənarda qalmayacaq, öz fəaliyyətini həmin məsələləri nəzərə almaqla quracaq.

Azərbaycan həmkarlar ittifaqlarının bir əsrdən artıqdır fəaliyyət göstərdiyini deyən Əli Həsənov ölkənin bu ən kütləvi ictimai təşkilatının keçdiyi tarixi yola nəzər salaraq bildirib ki, 1993-cü ildə ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda ali siyasi hakimiyyətə qayıdışından sonra Azərbaycan həmkarlar ittifaqları öz inkişafının yeni mərhələsinə qədəm qoydu, bu qurumların fəaliyyəti fərqli məzmun kəsb etməyə başladı. Heydər Əliyev, ilk növbədə, həmkarlar təşkilatlarını müxtəlif siyasi qüvvələrin təsirindən qorudu, onların uzun illər ərzində yaradılmış maddi-texniki bazasının dağıdılmasının qarşısını aldı. Həmkarlar



ittifaqlarının təşkili, idarə olunması və fəaliyyətində ideoloji amillərin təsiri aradan qaldırıldı, inzibati amirlik metodlarından imtina edildi, demokratik idarəçilik mexanizmlərini əsas tutan Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının yaradılmasına hər cür dəstək verildi. 1994-cü ildə qəbul olunmuş "Həmkarlar İttifaqları haqqında" Azərbaycan Respublikasının Qanunu bu qurumun cəmiyyətimizdəki fəaliyyətinin müasir prinsiplər əsasında tənzimlənməsi üçün hüquqi baza yaradıb.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının fəaliyyətini diqqət mərkəzində saxlayan Ulu Öndər bu təşkilata öz missiyasını yerinə yetirmək üçün yaxından kömək göstərilməsi, sosial tərəfdaşlıq, əməyin mühafizəsi və əmək hüquqlarının qorunması sahəsində onun imkanlarından yararlanmaq üçün hökumət qarşısında vəzifələr qoyurdu. Təsadüfi deyil ki, 1997-ci ildən başlayaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası hər il ölkənin sosial-iqtisadi siyasətinin reallaşmasında razılaşdırılmış mövqelərini və birgə fəaliyyəti müəyyən edən Baş Kollektiv Saziş imzalayırlar. Ölkədə yoxsulluğun səviyyəsinin aşağı salınması və aztəminatlı əhalinin rifahının yaxşılaşdırılması sahəsində strategiyanın formalaşdırılması və onunla bağlı tədbirlərin həyata keçirilməsini təmin etmək məqsədilə ümummilli lider Heydər Əliyevin 2001-ci il 2 mart tarixli Sərəncamı ilə yoxsulluğun azaldılması sahəsində Dövlət proqramının hazırlanması üzrə komissiyanın yaradılması nəzərdə tutulmuşdu. Sonralar Azərbaycan Prezidentinin sərəncamları ilə 2003-2005-ci və 2008-2015-ci illərdə ölkəmizdə yoxsulluğun azaldılması və davamlı inkişaf üzrə Dövlət proqramları qəbul edilib və uğurla icra olunub.

Azərbaycan həmkarlar ittifaqlarının inkişafında 2004-cü ildən sonrakı dövrün keyfiyyət dəyişikliyi baxımından xüsusilə fərqləndiyini deyən Prezidentin köməkçisi bildirib ki, bu illər mübaliğəsiz olaraq, ölkədə həmkarlar təşkilatlarının fəaliyyətində yeni yüksəliş dövrü kimi xarakterizə oluna bilər. Bunun əsas səbəbləri birincisi, ümummilli lider Heydər Əliyevin həm inkişaf strategiyasının, həm də həmkarlar ittifaqlarına dair siyasətinin Prezident İlham Əliyev tərəfindən ardıcıl davam etdirilməsindən, ikincisi, Azərbaycanda sürətli sosial-iqtisadi inkişaf və modernləşmə kursunun həyata keçirilməsindən ibarətdir.

Azərbaycan Prezidenti İlham Əliyevin siyasi xəttinin mərkəzində Azərbaycan vətəndaşı, onun mənafeyi dayanır. Dövlətimizin başçısının rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasətin nəticəsində ölkəmizdə ictimai-siyasi və makroiqtisadi sabitlik davamlı xarakter alıb, dinamik sosial-iqtisadi inkişaf və modernləşmə dövrü başlayıb. 2004-cü ildən etibarən Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət proqramları uğurla yerinə yetirilir. Bu il dördüncü proqramın icrası başa çatdırılacaqdır. Bu proqramların və nəhəng infrastruktur layihələrinin həyata keçirilməsi ölkə iqtisadiyyatının inkişafında mühüm əhəmiyyət daşımaqla, regionlarda yeni müəssisələrin və iş yerlərinin yaranmasına, kommunal xidmətlərin səviyyəsinin yüksəldilməsinə və əhalinin rifah halının daha da yaxşılaşdırılmasına, yoxsulluq səviyyəsinin kəskin şəkildə aşağı düşməsinə mühüm təsir göstərib.

Ardı Səh. 8

# Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının V qurultayı keçirilib

Əvvəli Səh. 7

Prezidentin köməkçisi deyib ki, 14 il ərzində ölkə iqtisadiyyatı 3,2 dəfə, qeyri-neft sektoru 2,8 dəfə artıb. Hazırda Azərbaycanda işsizlik 5 faiz, yoxsulluq isə 5,4 faiz təşkil edir. Ötən 14 il ərzində maaşlar beş dəfədən, pensiyalar isə səkkiz dəfədən çox artıb. Əhalinin sosial müdafiəsi və sosial təminatı ilə bağlı dövlət büdcəsindən ayırmalar ilbəil artaraq 30 faizi ötüb. Azərbaycan Respublikası vətəndaşlarının əmək hüquqlarının qorunması, işçilərin maddi, sosial tələbatlarının ödənilməsi və layiqli həyat səviyyəsinin təmin edilməsi ölkədə həyata keçirilən sosial-iqtisadi siyasətin prioritetlərindəndir.

Ölkədə sosial sahənin inkişafının Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın fəaliyyətində də mühüm yer tutduğunu vurğulayan Əli Həsənov bildirib ki, Mehriban xanım daim təhsil, səhiyyə və mədəniyyətlə bağlı məsələlərə, aztəminatlı və qayğıya ehtiyacı olan insanlara xüsusi həssaslıqla yanaşıb, bu istiqamətlərdə çoxsaylı proqramların reallaşdırılmasına nail olub. Xüsusi vurğulamaq lazımdır ki, doğma torpaqlarından didərgin düşmüş soydaşlarımızın üzləşdiyi ağır problemlərin həlli Birinci vitse-prezident kimi Mehriban xanım Əliyevanın daim diqqət mərkəzindədir.

Azərbaycan Prezidenti İlham Əliyevin yeni ictimai-siyasi və liberal iqtisadi sistemin təşəkkül tapdığı müasir dövrdə insanların iqtisadi və sosial mənafelərinin, əmək hüquqlarının qorunması sahəsində həmkarlar ittifaqlarının roluna həmişə böyük önəm verdiyini xatırladan Əli Həsənov deyib: “Cənab Prezident mütəmadi olaraq AHİK-in fəaliyyəti ilə maraqlanır, onun qurultaylarına təbrik məktubları göndərir, qiymətli tövsiyələrini verir, həmkarlar ittifaqları xadimlərini və fəallarını dövlət təltifləri ilə mükafatlandırır. İndiki dövrdə həmkarlar təşkilatları dövlətimizin onlara yaratdığı şəraitə adekvat olaraq Prezident İlham Əliyevin həyata keçirdiyi sosialyönümlü siyasətə layiqli dəstək verməli, əmək kollektivlərində öz işinin gücləndirilməsinə və tərəfdaşlarla səmərəli əməkdaşlığın dərinləşdirilməsinə diqqəti artırmalıdır. Həmçinin AHİK beynəlxalq əlaqələrini bundan sonra da genişləndirməlidir. Hazırda Beynəlxalq Əmək Təşkilatı və Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyası kimi nüfuzlu beynəlxalq qurumların üzvü olan AHİK ölkəmizin beynəlxalq əlaqələrinin inkişafına öz töhfəsini verir. Düşünürəm ki, Konfederasiya bu istiqamətdə fəaliyyətini ardıcıl davam etdirməli, beynəlxalq platformalarla yanaşı, ayrı-ayrı ölkələrin oxşar qurumları ilə sıx təmaslar yaratmalıdır. Bu, həm qabaqcıl dünya təcrübəsinin ölkəmizdə tətbiqinə, həm də Azərbaycanın qazandığı nailiyyətlərin xaricdə tanıdılması və istifadə olunmasına imkan verərdi. Bir sözlə əminəm ki, Həmkarlar Konfederasiyası əldə olunmuş nailiyyətlərlə kifayətlənməyəcək, zamanın çağırışlarına uyğun çevik addımlar atmaqla öz fəaliyyətini təkmilləşdirəcək, cəmiyyətdə nüfuzlu mövqeyini daha da möhkəmləndirəcək”.

AHİK-in sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev çıxışlara və səmimi təbriklərə görə minnətdarlığını bildirib. Sonra mandat komissiyasının hesabatı dinlənilib. AHİK-in V qurultayı qısa fasilədən sonra işini davam etdirib.

Konfederasiyanın sədri S.Möhbalıyev bildirib ki, AHİK-in sıralarındakı 17 minədək həmkarlar ittifaqı təşkilatının V qurultaydan əvvəlki toplantılarında yüz minlərlə fəal üzv builki prezident seçkilərində İlham Əliyevin namizədliyini dəstəkləyəcəklərini bəyan edib. Onlar bu istəklərinin qurultayda rəsmi sənədlərdə əksini tapması üçün mandat veriblər. Biz 2008-ci və 2013-cü il prezident seçkilərində olduğu kimi, bu dəfə də ənənəmizə sadiq qalaraq İlham Əliyevin namizədliyini dəstəkləyəcək və onun könüllü vəkilləri olacağıq.

Qurultayda 2018-ci ildə Azərbaycanda keçiriləcək növbədənkənar prezident seçkilərində İlham Əliyevin namizədliyinin irəli sürülməsi haqqında qərar layihəsi səsə qoyularaq qəbul olunub.

Qurultayın nümayəndələri qarşıdakı seçkilərdə namizədliyinin irəli sürülməsinə razılıq verməsi barədə Prezident İlham Əliyevə müraciət ediblər. AHİK-in sədri, Milli Məclisin deputatı S.Möhbalıyev hesabat məruzəsi ilə çıxış edərək Konfederasiyanın V qurultayının əlamətdar hadisə - qurumun yaradılmasının 25 illiyi ərəfəsinə təsadüf etməsini məmnunluqla vurğulayıb.

Konfederasiya sədri hazırda 1,5 milyona yaxın üzvü birləşdirən və Azərbaycanda ən böyük ictimai təşkilat olan AHİK-in fəaliyyət göstərdiyi 25 il ərzində qurumun inkişafında xidmətləri olan şəxslərə minnətdarlığını bildirib, dünyasını dəyişənlərə rəhmət diləyib. Qeyd edib ki, belə insanlar arasında ilk yerdə ulu öndərimiz Heydər Əliyev dayanır. Ulu öndər Heydər Əliyev vətəndaşların qanuni mənafelərinin, əmək hüquqlarının qorunmasında, sosial problemlərinin həllində də mühüm rol oynayan həmkarlar ittifaqı təşkilatlarının fəaliyyətini həmişə yüksək qiymətləndirib. Xüsusilə Heydər Əliyevin 1994-cü ildə təsdiq etdiyi “Həmkarlar ittifaqları haqqında” Qanun Azərbaycanda həmkarlar ittifaqları hərəkatının müasir inkişafına təkan verib, təşkilatın cəmiyyətdəki rolunu gücləndirib.




Ulu öndər Heydər Əliyevin müdrik siyasətini qətiyyətlə davam etdirən Prezident İlham Əliyevin yürütdüyü siyasətin sayəsində Azərbaycanın sürətlə inkişaf edərək regionun lider dövlətinə çevrildiyini vurğulayan S.Möhbalıyev bildirib ki, dövlətimizin başçısının imzaladığı sərəncamlarla təsdiq edilən regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarının uğurla həyata keçirilməsi nəticəsində ölkəmizin davamlı sürətli tərəqqisi təmin olunub, iqtisadiyyat üç dəfədən çox artıb, yoxsulluğun və işsizliyin səviyyəsi minimum həddə enib.

Diqqətə çatdırılıb ki, dövlətimizin başçısının təşəbbüsü ilə Strateji Yol xəritələrinin qəbul edilməsi, “Cənub Qaz Dəhlizi” layihəsinin uğurlu inşası, Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı, “Əsrin müqaviləsi”nin müddətinin 2050-ci ilədək uzadılması, Azərbaycanın müəllifi olduğu nəqliyyat dəhlizləri gələcəkdə də ölkəmizin uğurlu inkişafını təmin edəcək.

Konstitusiyaya əlavə və dəyişikliklərlə bağlı 2016-cı il sentyabrın 26-da keçirilən referendumun əhəmiyyətini qeyd edən AHİK sədri əlavə və dəyişikliklərin 16-nın insan hüquq və azadlıqları ilə əlaqədar olmasının önəmini vurğulayıb. Bildirib ki, həmkarlar ittifaqlarının fəaliyyətinə bilavasitə aid olan “Tətil hüququ” adlı 36-cı maddəsinə edilən dəyişiklik həm maddəni tamamlayır, həm də işəgötürənlərin yerli-yersiz lokautdan istifadə etməsinin qarşısını alır. Vurğulanıb ki, referendum nəticəsində ölkəmizdə vitse-prezidentlik institutunun təsis edilməsi idarəçiliyin daha da demokratikləşməsi yönündə mühüm addım oldu. 2017-ci il fevralın 21-də Prezident İlham Əliyevin Sərəncamı ilə Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın Birinci vitse-prezident vəzifəsinə təyin edilməsi ölkə ictimaiyyəti tərəfindən rəğbətlə qarşılanıb.

Məruzəçi qeyd edib ki, AHİK hərbi-vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, gənclərimizin hərbi xidmətə hazırlığı prosesində fəal iştirak edir. Konfederasiya 2000-ci ildən C.Naxçıvanski adına Hərbi Liseyi hamiliyə götürüb. İndiyədək liseyin həyatında fərqlənən 250-dən çox kursant mükafatlandırılıb. Hesabat dövründə kursantlara 12,5 min, Silahlı Qüvvələrə Yardım Fonduna isə 50 min manat ödənilib.

Bildirilib ki, AHİK dünyanın əksər mütərəqqi həmkarlar ittifaqları mərkəzləri, o cümlədən Türkiyə, Fransa, Polşa, Belçika, Yaponiya, İtaliya, Macarıstan, Yunanıstan, Norveç, İsrail, Bolqarıstan, Litva, Latviya, Çin və MDB ölkələrinin həmkarlar ittifaqları təşkilatları ilə səmərəli əməkdaşlıq edir. Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının (BHİK), MDB ölkələri həmkarlar ittifaqlarının daxil olduğu Ümumhəmkarlar İttifaqı Konfederasiyasının (ÜHİK) üzvü olan AHİK-in sədri BHİK-in, Pan Avropa Regional Şurasının vitse-prezidentidir.

Səttar Möhbalıyev deyib ki, hazırda Konfederasiyanın sıralarında 1,5 milyona yaxın üzvün birləşdiyi 16 min 901 həmkarlar ittifaqı təşkilatı fəaliyyət göstərir. Son 5 ildə 507 yeni ilk həmkarlar ittifaqı təşkilatı yaradılıb, 56 min 497 nəfər həmkarlar ittifaqı üzvlərinin sırasına cəlb edilib. Qeyd olunub ki, ölkəmizdə sosial tərəfdaşlığın inkişaf etdirilməsi sahəsində görülən işlər müsbət nəticə verir. Azərbaycan həmkarlar ittifaqları tripartizmi dəstəkləyir, sosial dialoq və sosial ədalət prinsiplərinə tərəfdardır. AHİK-in Sosial və İqtisadi Məsələlər üzrə Üçtərəfli Komissiyanın yaradılması təklifləri ilə bağlı Nazirlər Kabineti, AHİK və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası arasında Sosial və İqtisadi Məsələlər üzrə Üçtərəfli Komissiyanın təsis edilməsi haqqında birgə qərar imzalanıb. Bununla da Azərbaycan həmkarlar ittifaqları yeni inkişaf mərhələsinə qədəm qoyub.

Vurğulanıb ki, Azərbaycan Prezidentinin “Azərbaycan Respublikasında əmək münasibətlərinin tənzimlənməsinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” 2017-ci il 17 mart tarixli Sərəncamı ilə Əmək Münasibət-

# Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının V qurultayı keçirilib



lərinin Tənzimlənməsi və Koordinasiya Komissiyasının yaradılması xüsusi önəm daşıyır. Əmək münasibətlərinin tənzimlənməsinin təkmilləşdirilməsi ilə bağlı Tədbirlər Planı təsdiqlənib, işçi qrupu, Komissiya yanında Qeyri-Rəsmi Məşğulluqla Mübarizə Mərkəzi yaradılıb. Hazırda qeyri-rəsmi fəaliyyətlə məşğul olanların bir milyon nəfərinin Tədbirlər Planının icrası nəticəsində mərhələli şəkildə real iş sektoruna cəlb olunması gözlənilir. Hesabat dövründə 3 Baş Kollektiv Saziş, hər il orta hesabla 110 sahə (tarif) sazişi, 12 min kollektiv müqavilə bağlanıb. Həmin sənədlərdə həmkarlar ittifaqlarının tələbləri əksini tapıb. Bu sahədə görüləcək işlərə Azərbaycan Respublikasının "2016-2020-ci illər üçün Layiqli Əmək üzrə Ölkə Proqramı" təminat yaradır. AHİK bu Proqramın hazırlanmasında fəal iştirak edib.

Bildirilib ki, "Layiqli Əmək üzrə Ölkə Proqramı" hazırlanarkən qeyri-formal iqtisadiyyatın leqallaşdırılması, gender bərabərliyinin təmin olunması, diskriminasiya hallarının qarşısının alınması problemlərinə diqqət artırılıb. Digər tərəfdən, işsizliyin aradan qaldırılması, gənclərin məşğulluğunun təmin edilməsi, layiqli iş yerlərinin yaradılması da önəmli məsələlərdəndir. 2016-2020-ci illər üçün Proqramın həyata keçirilməsində Milli Üçtərəfli Komissiya özünəməxsus rol oynayacaq. AHİK-in sosial tərəfdaşlarla konstruktiv əməkdaşlığı Proqramın uğurlu icrasına imkan yaradıb.

AHİK müvafiq dövlət orqanları tərəfindən göndərilmiş normativ hüquqi aktların layihələrinin ekspertizasında iştirak etməklə yanaşı, Dəyişdirilmiş Avropa Sosial Xartiyasının və BƏT-in konvensiyalarının tələblərinə cavab verməsi baxımından mövcud qanunlara dəyişiklik olunması təklifi ilə çıxış edib. BƏT-in Milli Məclisdə ratifikasiya edilmiş konvensiyalarında əksini tapmış əsas prinsip və hüquqlara əməl olunması AHİK-in daim diqqət mərkəzində saxladığı məsələlərdəndir. AHİK Azərbaycanın BƏT-in 168, 155, 184, 97 saylı konvensiyalarına qoşulması təklifi ilə çıxış edib və bu sahədə məqsədyönlü iş aparır.

Diqqətə çatdırılıb ki, respublikamızda əməyin mühafizəsi ilə bağlı qanunların, digər normativ sənədlərin beynəlxalq standartlara uyğunlaşdırılması sahəsində xeyli iş görülüb. Məruzədə qeyd olunub ki, hesabat dövründə zonalar üzrə 875 tematik seminar keçirilib. Bu tədbirlərdə həmkarlar ittifaqlarının 23 minədək fəal üzvü iştirak edib, 4598 nəfər anket sorğularını cavablandırıb. On ilə yaxındır ki, AHİK hər il "Sağlam və təhlükəsiz əmək şəraiti yaradılması üzrə ilin ən yaxşı müəssisəsi (təşkilatı)" adı uğrunda müsabiqələr keçirir. Ötən müddətdə müsabiqələrdə 9328 müəssisə iştirak edib. Onlardan 297-si qalib adına layiq görülüb.

Məruzəçi qeyd edib ki, AHİK qeyri-formal iqtisadiyyatın və onun işçilərə təsirinin səviyyəsini aşağı salmaq istiqamətində mühüm tədbirlər həyata keçirir. Azərbaycan Prezidentinin tapşırığı ilə ölkədə mövcud demoqrafik meyillər və inkişaf perspektivləri, iqtisadi prioritetlər əsasında uzunmüddətli dövlət məşğulluq siyasətinin formalaşdırılması üçün Azərbaycan Respublikası Məşğulluq Konsepsiyasının hazırlanması üzrə yaradılmış İşçi Qrupuna AHİK sosial tərəfdaşları ilə birgə daxil edilib və üzərinə düşən vəzifəni uğurla yerinə yetirib.

AHİK-in ölkəmizdə həyata keçirilən gənclər siyasəti çərçivəsində gördüyü işlərdən danışan S.Möhbalıyev deyib ki, qurumun İcraiyyə Komitəsinin "Gənc həmkarlar ittifaqı lideri məktəbi - gənc işçilər üçün kompleks proqram haqqında" qərarı buna bariz nümunədir. Konfederasiya gənclərin ixtisaslı kadr kimi hazırlığı işinə töhfə vermək üçün "İlin peşəkar gənci" fəxri adını təsis edib. İndiyədək 107 gənc bu ada layiq görülüb. Həmçinin əlavə və ictimai işlərdə fərqlənən tələbələrə həmkarlar ittifaqının vəsaiti hesabına adlı təqaüd, orta məktəb şagirdlərinin bir qisminə təqaüd verilir. Dörd minə yaxın imkansız ailədən olan tələbə həmkarlar ittifaqının vəsaiti hesabına universitetlərdə pulsuz nahar edir. Həmkarlar ittifaqları tərəfindən 156 tələbə üçün adlı təqaüd müəyyənləşdirilib. Tələbələrin yemək xərclərinə 341 min manat, həmkarlar ittifaqı fəalı olan əlaçı tələbələrə Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin adlı təqaüdlərinin ödənilməsinə 201 min manat, müsabiqə qaliblərinin mükafatlandırılmasına 194 min manat, "Maarifçi" Tələbə Kredit Fondunun maliyyələşməsinə 100 min manat vəsait sərf olunub, 66 aztəminatlı ailənin uşaqlarının təhsil haqları həmkarlar ittifaqları tərəfindən ödənilib.

Diqqətə çatdırılıb ki, hesabat dövründə AHİK-ə daxil olan 1580 ərizənin sahiblərinə 135,2 min manat, 20 Yanvar şəhidlərinin ailə üzvlərinə 57,9 min manat, "Günəşli" yatağında itkin düşmüş və xəsarət almış neftçilərin ailələrinə 49,5 min manat, "Ölkəmizi tanıyaq" turaksiyalarının maliyyələşdirilməsinə 483 min manat, Qarabağ müharibəsi əlillərinə 36,3 min manat, himayəyə götürülmüş ailələrə 169,1 min manat, mətbuat işçilərinə 17,2 min manat, AMEA-da keçirilmiş müsabiqələrin qaliblərinə 44,5 min manat, sahə həmkarlar ittifaqları tərəfindən 49 min 606 qaçqın və məcburi köçkün ailəsinə pul və ərzaq yardımları göstərilib. Ümumilikdə hesabat dövründə həmkarlar ittifaqları tərəfindən 31,2 milyon manat, o cümlədən AHİK üzrə bir milyon manat maddi yardım göstərilib.

Bildirilib ki, AHİK qadınların sosial-iqtisadi həyatda fəal iştirakına, həmkarlar ittifaqlarının strukturlarında daha çox təmsil olunmalarına, onların rolunun gücləndirilməsinə xüsusi diqqət yetirib. Ötən beş il ərzində gender məsələlərinin həlli üzrə beynəlxalq təşkilatlarla, dövlət qurumları və qeyri-hökumət təşkilatları ilə birlikdə 11 min 27 konfrans, seminar, "dəyirmi masa" və digər tədbirlər keçirilib. Hazırda həmkarlar ittifaqı üzvlərinin 52,3 faizi, AHİK aparatında işləyənlərin isə 48 faizi qadınlardır.

Qeyd olunub ki, son beş ildə həmkarlar ittifaqı üzvlərindən AHİK-ə və üzv təşkilatlara 786 min 484 ərizə və şikayət daxil olub. Onların 6,4 faizi işçilərin əmək hüquqlarının pozulması ilə əlaqədar olub. Ərizə və şikayətlərin 95,2 faizi müsbət həll edilib. AHİK-ə və üzv təşkilatlara daxil olan ərizələrin əksəriyyəti maddi yardımla bağlı olub. Onların hamısı həmkarlar ittifaqları təşkilatları tərəfindən müsbət həll edilib.

Məlumat verilib ki, üzvlərin istirahəti və sağlamlıqlarının bərpası hesabat dövründə də diqqət mərkəzində saxlanılıb. Konfederasiya "Azərbaycan Respublikasında Kurortların 2009-2018-ci illərdə inkişafı üzrə Dövlət Proqramı"nın icrasını təmin etmək məqsədilə tabeliyində fəaliyyət göstərən sanatoriya-kurortlarda, istirahət evlərində əsaslı təmir, yenidənqurma və abadlıq işləri aparıb, yeni qurğu və avadanlıqla təmin olunmasını həyata keçirib. Bunun sayəsində "Bilgəh", "Abşeron", "Qaranquş", "Günəşli", "Şıx" sanatoriyaları ən müasir tələblərə cavab verən istirahət və müalicə müəssisələrinə çevrilib.

Ötən beş ildə həmkarlar ittifaqları tərəfindən 308 min 223 nəfərin müalicəsi və istirahəti təmin olunub. Sanatoriya-kurort və istirahət müəssisələrində 291 min 973 nəfər, o cümlədən 35 min uşaq və yeniyetmənin valideynləri ilə birlikdə istirahəti təşkil olunub. Təhsil, Dövlət İdarələri, Dəmir yolu, Rabitə, Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Respublika komitələri öz vəsaitləri hesabına müasir istirahət mərkəzləri tikib istifadəyə veriblər. Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi istirahət ocağının tikintisini davam etdirir.

AHİK sədri Azərbaycan həmkarlar ittifaqlarının yaranmasının 110 illiyinin geniş qeyd olunduğunu vurğulayaraq, həmin ərəfədə dövlətimizin başçısının sərəncamları ilə 109 nəfərin orden, medal və fəxri adlarla təltif olunduğunu deyib. Bildirib ki, Prezident tərəfindən təltif olunanların sayı ümumilikdə 344-ə çatıb. Onlardan 213-ü ötən hesabat dövrünə aid olub. Bu yüksək diqqətə görə Prezident İlham Əliyevə AHİK-in üzvləri adından dərin minnətdarlığını bildirən S.Möhbalıyev Konfederasiyanın bu etimadı layiqincə doğruldaraq mühüm uğurlar qazandığını xatırladıb. Bildirib ki, BƏT-in 106-cı sessiyasında Azərbaycan Respublikası ilk dəfə təşkilatın rəhbər orqanına üzv seçilib. Sonra AHİK-in təftiş komissiyasının hesabat məruzəsi dinlənilib. AHİK-in 2013-2018-ci illərdəki fəaliyyətinə dair hesabat məruzəsi ətrafında çıxışlarda qurumun işi qənaətbəxş hesab olunub. Çıxışlarda, həmçinin AHİK-in sədri vəzifəsinə Səttar Suliddin oğlu Möhbalıyevin namizədliyi irəli sürülüb. Sonra AHİK-in və təftiş komissiyasının hesabat məruzələri səsə qoyularaq təsdiqlənib.

Daha sonra təşkilati məsələlərə baxılıb, AHİK-in sədri vəzifəsinə seçkilər keçirilib.

Milli Məclisin deputatı Səttar Suliddin oğlu Möhbalıyev açıq səsvermə yolu ilə yenidən Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri seçilib.

Həmçinin AHİK sədrinin səlahiyyət müddətinin 5 ildən 7 ilədək artırılması məsələsi səsə qoyularaq təsdiqlənib. Qurultayda AHİK məclisinin, təftiş komissiyasının tərkibi də seçilib və s. təşkilati işlər müzakirə olunub, müvafiq qərarlar qəbul edilib.

Daha sonra AHİK-in V qurultayının nümayəndələrinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar bütün dünya həmkarlar ittifaqlarına müraciəti səsləndirilib.

Müraciət səsə qoyularaq təsdiq olunub. Bununla da Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının V qurultayı işini başa çatdırıb.

# İşağlçı ölkənin ac-yalavac xalqı

*Bu ilin sonuna kimi, Ermənistanda vətəndaşların həyat səviyyəsinin daha da pisləşəcəyi gözlənilir*

***Erməni iqtisadçısı Artak Manukyan hesab edir ki, 2018-ci ilin sonuna kimi, Ermənistan vətəndaşlarının həyat səviyyəsi daha da ağırlaşacaq və bu reallıq nəticə etibarilə, sosial partlayışla müşahidə olunacaq. İqtisadçı bu fikirlərini tert.am saytına açıqlayıb. Onun fikrincə, bunun səbəblərindən biri də ötən ilin sonlarından başlayaraq, ərzaq məhsullarının qiymətinin durmadan artmasıdır.***



Manukyana görə, Serj Sarkisyan siyasi mövqeyini qoruyub-saxlamaqdan ötrü ətrafında ona xəyanət edə biləcək şəxsləri özündən uzaqlaşdırmaqla məşğuldur və hazırda nə onu, hə də hakimiyyətin ona yaxın çevrələrini xalqın vəziyyəti maraqlandırmır. "Uzağı, siyasi xal toplamaq üçün pafoslu çıxışlar və çağırışlar ola bilər, ancaq reallığa qalanda, bunların heç biri həyata keçirilməmiş qalacaq"-deyə erməni iqtisadçısı bildirib. A.Manukyan onu qeyd edib ki, Ermənistan vətəndaşlarının rifahı üçün cəhdlərin edilməməsini pensiya və əməkhaqlarının artırılmaması da göstərir: "Ermənistanda bu ilin dövlət büdcəsində təqaüd, müavinət və ya əmək haqqının artırılması nəzərdə tutulmur. Bu da vətəndaşların haqlı narazılığına səbəb olub".





Onu da qeyd edək ki, erməni təqaüdçülər də deyirlər ki, ölkədə vəziyyət, onsuz da, ağırdır. Gənclər Ermənistanı tərk edib, xaricə getməyə üstünlük verirlər. Ölkə yaşlıların ümüdünə qalıb. Onların isə qayğıları ilə maraqlanan yoxdur.

## İqtisadçı Qaqik Makaryan: "Ermənistanda təqaüd və maaşlar deyil, vergilər və malların qiyməti artacaq"

Digər erməni iqtisadçısı Qaqik Makaryan da həmkarı kimi Ermənistan sosial partlayışın astanada olduğunu bildirib və Ermənistanda kütləvi vətəndaş itaətsizliyinin yaranacağı ehtimalının maksimum həddə çatdığını qeyd edib: "Etirazlar gözlənilərdir. Çünki ölkədə əmək haqarı və təqaüdlər ildənilə artan kommunal xidmətlər və ərzaq məhsullarına adekvat deyil. Yaxın bir ildə də Ermənistanda təqaüd və maaşlar deyil, vergilər və malların qiyməti artacaq. Hökumət 2018-ci ildə növbəti inflyasiya dalğasını da proqnozlaşdırır. Deməli, ölkədə hökm sürən ağır sosial-iqtisadi vəziyyət bir qədər də dərinləşəcək".

Maraqlıdır ki, bəzi hallarda, ölkədəki ağır və böhranlı durumu Serj Sarkisyanın nazirləri də etiraf etməli olurlar. Misal üçün, maliyyə naziri Vardan Aramyan televiziyaların birinə verdiyi müsahibəsində təqaüd və maaşlarda artımın olmamasını büdcədə vəsait çatışmazlığı ilə əlaqələndirib.

## Serj Sarkisyan maliyyə naziri Vardan Aramyanı niyə istefaya göndərə bilər?

Nazirin bu kimi aşkar çıxışı hakimiyyətin yüksək eşalonunun narazılığına səbəb olub və gözlənilir ki, yaxın günlərdə prezident Serj Sarkisyan Vardan Aramyanı istefaya göndərsin. Çünki hökumət nümayəndələrinin bədbin açıqlamaları təqaüdçülərin etirazına səbəb olub. Hazırda isə, vətəndaşları bir sual maraqlandır: ölkə əhalisi ildən-ilə geriləyən büdcədən nə vaxta kimi əziyyət çəkəcək? Xalaq bundan sonra, nə zamana qədər ac-yalavac qalaraq, hakimiyyətin yalan vədlərinə qulaq asmalı olacaq? Çünki yoxsul və ac erməni xalqı artıq Ermənistanda yaxşı gələcəkdən məhrum olduğunu, ömürlərini isə səfalət içində başa vuracaqlarını, necə deyərlər, göz altına alıb.

Bütün bunların təhlilini aparankən, bu il, işğalçı ölkədə keçirilən seçkilərin nəticələrindən asılı olmayaraq, vəziyyətin kritik, şəkildə dəyişəcəyini ehtimal etmək olar. Çünki xalqın başqa çıxış yolu da qalmayıb.

***Rövşən NURƏDDİNOĞLU***

# Mətbuat Şurasının idarə heyətinin iclası keçirilib

Fevralın 5-də Azərbaycan Mətbuat Şurasının idarə heyətinin növbəti iclası keçirilib. Mətbuat Şurasından AZƏRTAC-a bildiriblər ki, əvvəlcə gündəlik səsə qoyularaq qəbul edilib. Şuranın sədri, Milli Məclisin deputatı Əflatun Amaşov gündəliyin birinci məsələsi - 2017-ci ildə görülən işlərə dair hesabat müzakirəsi ilə çıxış edib. Diqqətə çatdırılıb ki, hesabat ilində Mətbuat Şurasına 602 müraciət daxil olub. KİV-lə bağlı daxil olan 171 şikayətin 88-nə bilavasitə Şuranın katibliyində baxılıb. Şikayətlərdən 83-ü Mətbuat Şurasının müvafiq komissiyalarında araşdırılıb. "Reket jurnalistika"ya qarşı mübarizə komissiyasında baxılan 27 şikayətdən 18-də məsələ ilə bağlı araşdırılmaların davam etdirilməsi rəyinə gəlinib. 9 rəydə isə cavabdeh KİV-in adının Şuranın "qara siyahı"sına daxil edilməsi əksini tapıb. Çıxarılmış 45 rəydə isə cavabdeh KİV-in "Azərbaycan Jurnalistlərinin Peşə Davranışı Qaydaları"nın hansı prinsip və bəndlərini pozduğu müəyyənləşdirilib.



İclasda Şuranın hesabat ilindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib. Sonra gündəlikdə duran ikinci məsələ - Azərbaycan jurnalistlərinin VII qurultayı ilə bağlı məsələ müzakirə olub. İclasda qurultaya hazırlıq üzrə təşkilat komitəsi yaradılıb.

Müzakirələrdən sonra ölkə jurnalistlərinin VII qurultayının martın 10-da keçirilməsi barədə qərar qəbul edilib. Qərara əsasən, Şuraya üzv gündəlik qəzetlər və informasiya agentlikləri qurultayda 2, həftəlik və aylıq qəzetlər, bölgə nəşrləri, jurnallar, jurnalist təşkilatları və informasiya saytları isə 1 nümayəndə ilə iştirak edəcəklər. Qurultayda Mətbuat Şurasının 17 əsas və 5 ehtiyat üzvü seçiləcək. Əsas üzvlərdən 8-i jurnalistləri, 6-sı ictimaiyyəti, 3-ü isə internet informasiya resurslarını, ehtiyat üzvlərdən 2-si jurnalistləri, 2-si ictimaiyyəti, 1-i isə internet informasiya resursların təmsil edəcək.

# Rauf Əliyev: "Son 14 ildə ölkə miqyasında xeyli sayda yeni sosial infrastruktur obyektləri yaradılıb"



"Azərbaycan sosial dövlətdir və ölkəmizdə dinamik iqtisadi inkişaf bir qayda olaraq genişməzmunlu sosial təşəbbüslərlə tamamlanır". Bu fikri Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədr müavini Rauf Əliyev deyib.

R.Əliyev bildirib ki, "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfransda qeyd edildiyi kimi, iqtisadiyyatın sosialyönümlülüyünün təmin edilməsi sayəsində son 14 ildə respublikamızda maaşlar beş, pensiyalar səkkiz dəfədən çox artıb. Bu dövrdə ölkə miqyasında bir çox önəmli sosial layihələr icra edilib, çoxlu sayda yeni sosial infrastruktur obyektləri yaradılıb.

"Prezident İlham Əliyev konfransdakı nitqində Azərbaycanda həyata keçirilən siyasətin təməlində vətəndaşların maraqlarının dayandığını bir daha qətiyyətlə nəzərə çatdırıb. Azərbaycanı sosial dövlət kimi səciyyələndirən əsas cəhətlərdən biri də ondan ibarətdir ki, ölkəmizdə əhalinin məşğulluğunun yüksək səviyyədə təmin olunması həyata keçirilən məqsədyönlü dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir. Ölkədə Prezident İlham Əliyevin siyasi iradəsi əsasında həyata keçirilən kompleks tədbirlər əmək bazarının tənzimlənməsində, əmək resurslarının məşğulluq imkanlarının artırılmasında, işçi qüvvəsinin rəqabət qabiliyyətinin yüksəlməsində və əmək resurslarından ümumi iqtisadi inkişafa əsaslanan məqsədəuyğun istifadənin təmin olunmasında mühüm rol oynayıb.

Müvafiq Dövlət proqramları çərçivəsində reallaşdırılan tədbirlər ölkə boyu yeni iş yerlərinin yaradılmasına müsbət təsir göstərib"- deyə, R.Əliyev qeyd edib.

# Azərbaycan kinosu 120 illik tarixi yolda

## *Ölkə başçısının Sərəncamı ilə əxlaqi-mənəvi dəyərlərin təbliğində mühüm rolu olan Azərbaycan kinosunun yubileyi qeyd olunacaq*



***Kino özündə mədəniyyətin bir neçə sahəsini birləşdirən yeganə sənət növüdür. Görkəmli mədəniyyət xadimi Abbas Mirzə Şərifzadənin sözləri ilə desək, kino musiqidi, teatrdı, ədəbiyyatdı, bir sözlə, özgə aləmdi. Azərbaycanda ilk kinosüjetlər dünya kinosundan üç, Rusiyadan isə iki il sonra çəkilib. 1898-ci ildə lentə alınan "Bibiheybətdə neft fontanı" filmi elə həmin il avqustun 2-də Bakıda, 1900-cü ildə isə Parisdə Ümumdünya Kino Sərgisində nümayiş etdirilib. Azərbaycanda kino sənətinin əsasını qoyan həmin filmdən sonra mədəniyyətin bu maraqlı sahəsinə ardıcıl inkişaf yoluna start verilib.***

Həmin gündən etibarən, ölkəmizdə 2 Avqust Milli Kino Günü kimi qeyd olunur. Bu tarix Azərbaycan kino sənətinin yarandığı zamanı təqdim edir. Kino sənətimizin tarixini təsdiq edən sənədə bu, özünün təsdiqini tapır. Ümummilli Lider Heydər Əliyevin 2000-ci il dekabrın 18-də imzaladığı Sərəncama əsasən, respublikamızın bütün kino işçiləri hər il avqustun 2-də Milli Kino Gününü təntənə ilə bayram edirlər. Azərbaycanda kino epoxasının başlanğıcı onun tarixi kökləri olduğunu göstərir.

Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə Azərbaycan kinosunun 120 illiyi qeyd ediləcək. Məlumdur ki, tarixi-mədəni irsin, əxlaqi-mənəvi dəyərlərin təbliğində mühüm rolu olan Azərbaycan kinosunun tarixi Neft Bakısına dair ilk xronikal süjetlərin nümayişi ilə başlayıb. Azərbaycan kino sənəti təşəkkül tapdığı vaxtdan etibarən böyük inkişaf yolu keçmiş və ötən müddət ərzində, xalqın mədəni-mənəvi həyatında özünəməxsus mövqe qazanmışdır. İlk filmlər fotoqraf və nasir A.M.Mişon tərəfindən çəkilmiş xronika süjetləri "Bibiheybətdə neft fontanı yanğını", "Balaxanıda neft fontanı", "Şəhər bağında xalq gəzintisi", "Qafqaz rəqsi" və s. ibarət idi. 1915-ci ildə Qafqazda Pirone qardaşlarının açdığı səhmdar cəmiyyətləri tərəfindən Bakı, Tiflis və İrəvan şəhərlərində prokat kontorları yaradılmışdır. 1915-ci ildə adı çəkilən cəmiyyət neft sənayeçilərinin pulu ilə M. Musabəyovun "Neft və milyonlar səltənətində" romanı əsasında eyniadlı ilk Azərbaycan bədii filminin çəkilişinə başladı. 1916-cı ildə Bakıda Ü.Hacıbəyovun "Arşın mal alan" operettası əsasında ilk Azərbaycan kinokomediyası çəkildi. 1919-cu ildə isə, "Azərbaycanın müstəqilliyinin ildönümü münasibətilə təntənə" adlı tammetrajlı film ekranlarda nümayiş etdirildi. 1923-cü ildə Azərbaycan Foto-Kino İdarəsi təsis olundu. AFKİ ayrı-ayrı sahibkarların foto, kinoteatr və prokat kontorlarının milliləşdirilməsi və birləşdirilməsi tədbirlərini həyata keçirirdi. Azərbaycanda milli rejissor və aktyor kadrları hazırlamaq üçün 1925-ci ildə Ş.Mahmudbəyovun təşəbbüsü ilə AFKİ-nin nəzdində studiya təşkil edildi. Xurafat və cəhalətə qarşı mübarizə, inqilab və qadın azadlığı ötən əsrin 20-ci illərində Azərbaycan kinosunun əsas mövzusu idi. "Bismillah", "Vulkan üzərində ev", "Hacı Qara" kimi kino əsərləri, eləcə də, öz azadlığı uğrunda mübarizə aparan Azərbaycan qadını obrazını bədii və real şəkildə ifadə edən "Sevil" həmin dövrdə yaradılmış uğurlu filmlərdəndir.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Azərbaycan kinematoqrafiyasının inkişafında rolu çox böyük olmuşdur. O, incəsənət növləri arasında kinonu çox yüksək qiymətləndirmiş, Azərbaycan kinematoqrafiya xadimlərinin xalqımızın keçmiş və müasir həyatından onlarca yüksək keyfiyyətli ekran əsərləri yaratdıqlarını xüsusi vurğulamışdır. Ümummilli Liderin hakimiyyətə qayıdışından sonrakı illərdə də bu sahəyə daim diqqət yetirilmişdir. Kino sahəsinin inkişafı üçün hüquqi bazanın möhkəmləndirilməsini əsas prioritet seçmişdi. "Kinematoqrafiya haqqında", "Kinematoqrafiya sahəsində əməkdaşlıq haqqında" Azərbaycan Respublikasının qanunları qəbul edildi. Həmçinin, 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin Sərəncamı ilə ölkədə milli və xarici filmlərin daimi qorunub saxlanılması üçün vacib olan Azərbaycan Dövlət Film Fondu yaradıldı. Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan kinosunun 2008-2018-ci illər üzrə inkişafına dair Dövlət Proqramı"ına uyğun olaraq, Dövlət Film Fondu üçün yeni binası istifadəyə verildi.

Müstəqillik illərində çəkilən filmlər sırasında ssenarist və kinorejissor Vaqif Mustafayevin Ulu Öndər Heydər Əliyevin fəaliyyətindən bəhs edən silsilə filmləri də qeyd etməliyik. Xüsusən, onun çəkdiyi "Həqiqət anı" filmi tamaşaçıların marağına səbəb olmuşdur. Bundan başqa, Vaqif Mustafayev Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş 12 serialı "Heydər Əliyev" filmi maraq doğurur. Bu silsilədən olan filmlərdən "Əsl məhəbbət haqqında" filmi böyük uğur qazanıb. Bu film Moskvada keçirilən 4-cü Avrasiya Teleforumunda əsas mükafata və xüsusi mükafata layiq görülüb. Daha sonra "Bir həsədin tarixi" filmi 2002-ci ildə Yekaterinburqda keçirilən sənədli filmlər festivalında əsas mükafatlardan birini - Moskvada keçirilən 5-ci Avrasiya Teleforumunda "Qran-Pri" mükafatına layiq görülüb. Bu filmlər müxtəlif ölkələrdə böyük uğurla nümayiş etdirilib.

Bu gün dövlət sifarişi ilə əsasında çəkilmiş "Nabat", "40-cı qapı", "Çölçü", "Azərbaycan xalçası" , "Axınla aşağı", "Qırmızı bağ", "İçəri Şəhər", "Qisas almadan ölmə", "Onun atası", "Sonuncu" və s. bədii, sənədli və cizgi filmləri dünyanın beş qitəsini əhatə edən 50-dən çox ölkədə - Almaniya, İngiltərə, ABŞ, Kanada, Avstraliya, Yaponiya, Çin, Rusiya və digər ölkələrdə keçirilən beynəlxalq kinofestivallarda 200 dəfədən çox nümayiş etdirilib. Beynəlxalq kinofestival müsabiqələrinə qəbul edilmiş Azərbaycan filmlərindən 21-i "Ən yaxşı film", 6-sı "Ən yaxşı rejissor işi", 9-u "Ən yaxşı aktyor işi" mükafatlarına layiq görülüb. Bunlar Azərbaycan kinosunun uğurudur.

120 yaşlı kinomuz yeni uğurlara doğru inamla addımlayır və köhnə şöhrətin yenilənməsi yolunda addımlar atır.

**ZÜMRÜD**

# ABŞ diplomatları məcburi köçkünlərlə görüşüb

***Fevralın 4-də ATƏT-in Minsk qrupunun ABŞ-dan olan həmsədri Endrü Şofer və Birləşmiş Ştatların ölkəmizdəki səfiri Robert Sekuta Abşeron rayonunun Masazır qəsəbəsində məcburi köçkünlər üçün salınmış məhəllədə yaradılan şəraitlə maraqlanıblar.***

AZƏRTAC xəbər verir ki, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədr müavini Fuad Hüseynov diplomatlara ölkəmizdə qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində görülmüş işlərlə bağlı məlumat verib.





Bildirib ki, məhəllədə 760 məcburi köçkün ailəsi müvəqqəti məskunlaşıb və torpaqlarımız işğaldan azad edildikdən sonra onlar öz doğma torpaqlarına qayıdacaqlar. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında Azərbaycan hökumətinin qaçqın və məcburi köçkünlərin problemlərinin həlli istiqamətində gördüyü işlərdən danışan Fuad Hüseynov qeyd edib ki, bu günə qədər 97 müasir qəsəbə salınıb, 265 min qaçqın və məcburi köçkün müvəqqəti yaşayış üçün yeni qəsəbələrə köçürülüb.



Zəngilan Rayon İcra Hakimiyyətinin başçısı Ramiz Həsənov qeyd edib ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində ölkəmiz hərbi təcavüzə məruz qalıb. Nəticədə, ərazimizin 20 faizi - tarixi torpaqlarımız olan Dağlıq Qarabağ və ətrafdakı 7 rayon işğal olunub, bu ərazilərdə etnik təmizləmə siyasəti aparılıb və bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Dövlət onların yaşayışı üçün şərait yaratsa da insanlar öz doğma torpaqlarına qayıtmaq istəyir.



Səfir Robert Sekuta qeyd edib ki, ölkəmizdəki diplomatik fəaliyyəti dövründə o Azərbaycanın müxtəlif bölgələrində məskunlaşan məcburi köçkünlərlə görüşüb, onların fikirlərini dinləyib. Onun sözlərinə görə, ölkəsi münaqişənin sülh yolu ilə həllində maraqlıdır və bu istiqamətdə fəaliyyətlərini davam etdirir.

Sonra qonaqlar məcburi köçkünlərin mənzil şəraitləri ilə tanış olublar. ABŞ diplomatları məcburi köçkünlərlə söhbət edib, onların fikirlərini dinləyiblər. Görüş zamanı məcburi köçkünlər doğma torpaqlarına qayıtmaları üçün ABŞ-dan Minsk qrupunun həmsədr üzvü kimi öz səylərini artırmağı xahiş ediblər.

"Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin İdarə Heyətinin sədri-icmanın rəhbəri Bayram Səfərov, icmanın üzvü Fərhad Bədəlbəyli və Milli Məclisin deputatı Elman Məmmədov diplomatlara ermənilərin apardığı işğalçılıq siyasəti ilə bağlı məlumat veriblər. Onlar ABŞ-dan həmsədr ölkə kimi münaqişənin ədalətli həllinə dəstək verməsini gözlədiklərini bildiriblər. Daha sonra diplomatlar yaşayış kompleksindəki orta məktəbə və muzeyə baxıb, yaradılmış şəraitlə yerində tanış olublar.

TƏRS BAXIŞ

# Radikallar uduzacaqlarının fərqinə varıblar

*Yaxud müxalifət "liderləri" niyə əl-ayağa düşdülər?*

***Ölkə başçısının prezident seçkilərinin vaxtının dəyişdirilməsilə bağlı Azərbaycan Respublikası Konstitusiyasının 101-ci maddəsinin I hissəsini rəhbər tutaraq, eyni zamanda, Azərbaycan Seçki Məcəlləsinin 179-cu maddəsinə uyğun olaraq, verdiyi Sərəncamının ardınca, dağıdıcı müxalifət düşərgəsində sanki bir çalxalanma və təlaş baş qaldırıb. Xüsusilə, sosial şəbəkələrdə və düşərgəyə məxsus media səhifələrində bu amil daha çox diqqəti çəkməkdədir.***

Bu, belə qənaətə gəlməyə zəmin yaradır ki, müxalifət "liderləri", daha dəqiq desək, seçkilərə namizəd olaraq qatılacaqlarını iddia edən tərəflər uduzacaqlarının fərqinə varmağa başlayıblar. Məsələ ondadır ki, sözügedən Sərəncam imzalanmamışdan öncə, düşərgə təmsilçiləri uzun müddət aksiyalar və toplantılar vasitəsi ilə elektorat toplamağa çalışdılar. Ancaq bu proses onların xeyrinə deyil, əksinə, ziyanlarına işlədi.



## Mövzu aksiyalara gəlib çatanda sübut olundu ki, dağıdıcı müxalifətin sıralarını ayrı-ayrılıqda bir neçə yüz adam təşkil edir

Başqa tərəfdən, sübut olundu ki, hətta özlərini "ana müxalifət lideri" olaraq zorla ictimai rəyə sırımağa çalışanlar belə, heç bir siyasi uğur əldə edə bilmədilər. Düzdür, sosial şəbəkələrdə "beşinci kolon"un trolları, yeni saxta profillərlə status yazanlar az qala "minlərlə insan"obrazını yarada bildilər, ancaq mövzu aksiyalara gəlib-çatanda, sübut olundu ki, radikal müxalifətin sıralarını ayrı-ayrılıqda bir neçə yüz adam təşkil edir. Beləliklə, özlərini xalqdan təcrid edənlər toplumu kimi tanıdan radikal kəsimin "liderləri" də anladılar ki, kütləvi dəstək qazanmaq onlara müyəssər olmayacaq. O cümlədən, vaxtilə xarici dəstəklə siyasi dividendlərini artırmağa çalışanlar, indi bu dəstəklərdən də məhrum olmağa başlayıblar. Biz, elə də uzağa getməyərək, bir neçə ay öncə, AXCP sədri Ə.Kərimlinin, Müsavatın sabiq başqanı İ.Qəmbərin və s. müxalifətçilərin ABŞ-ın və Qərb ölkələrinin səfirlikləri qarşısında görünmələrini xatırlada bilərik. Xüsusilə, ABŞ səfirliyində "randevu" alan "liderlərə" səfir tərəfindən uzağı beş dəqiqə zaman ayrılması da bu həqiqəti kifayət qədər isbatlamaqdadır.

## Tarixin arxivi artıq onların yolunu səbirsizliklə gözləyir...

Əgər nəzərə alsaq ki, seçkilərə 2 ay qalıb və bu iki ay ərzində, 26 ilə yaxındır xalqdan dəstək ala bilməyənlər, heç bir nailiyyət əldə edə bilməyəcəklər, onda qarşı tərəflərin əndişələrini anlamaq elə də çətin olmaz. Uduzacaqlarının və bu dəfə daha rüsvayçı məğlubiyyətə uğrayacaqlarının fərqinə varmağa başlayanlar bu hisslərini keçirməsəydilər, ən azından, sakit tərzdə seçkilərə hazırlaşa və bütövlükdə, sosial mediada qaragüruhçu çağırışlara yol verməzdilər. Ümumiyyətlə, tam əminliklə deyə bilərik ki, 2018-ci ilin apreli bu kimi qaragüruhçu tolumun siyasi ölüm ili olacaq və tarixin arxivi, necə deyərlər, artıq onların yolunu səbirsizliklə gözləyir...

***Rövşən NURƏDDİNOĞLU***

***P.S. Fatihəsi oxunmuş radikal müxalifətə daha bir fatihə oxumaq "savabdır"...***

# "Bir ailədə dördüncü şəhid"

*Layihə çərçivəsində silsilə tədbirlər keçirilib*

***Azərbaycan əsgərinin şücaəti və şanlı zəfəri sayəsində tarixə düşən aprel döyüşləri bizim şanlı tariximizdir. Bu tarixi yaradan qəhrəman əsgərlərimizin şücaəti nəticəsində, Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Seysulan kəndi, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi və Tərtər rayonunun Maqadis kəndi istiqamətində yüksəkliklər və yollar düşməndən azad olundu.***

Bu döyüşdə qeyrətlə döyüşərək qəhrəmanlıq salnaməsi yaratmış, canlarını qurban vermiş Vətən oğulları arasında əslən Xocalı rayonundan olan Sarvan Mehraliyevin də ismi var. Azərbaycan Respublikasinin Prezidenti yanında Gənclər Fondunun maliyyələşdirdiyi "Bir ailədə dördüncü şəhid" layihəsi çərçivəsində Goranboy rayonunda Sarvan Mehraliyevə həsr olunmuş silsilə tədbirlər keçirilib.





Aşağı Ağcakənd qəsəbəsində yerləşən Xocalı rayonunun Meşəli kənd orta məktəbində, Aşağı Ağcakənd qəsəbəsindəki Xocalı rayon Mədəniyyət Mərkəzində, Goranboy rayonunun Aşağı Ağcakənd qəsəbəsindəki Xocalı rayonun Cəmilli kənd orta məktəbində, Goranboy rayonunun yeni yaşayış massivindəki Xocalı rayon 1 saylı orta məktəbində, Goranboy rayonun Yeni yaşayiş massivindəki Xocalı rayon Musiqi Məktəbində və Goranboy rayonun Rəhimli kənd orta məktəbində tədbirlər keçirilib. Tədbirlərdə çıxış edən Xocalı rayon Gənclər və İdman İdarəsinin rəhbəri Elməddin Bağırov, Goranboy rayonun Aşağı Ağcakənd qəsəbəsi Xocalı rayonun Meşəli kənd orta məktəbinin direktoru Aliş Alışova, Xocalı rayon Yeni Azərbaycan Partiyasının sədri Məlahət İsmayilova, Xocalı rayon 1 saylı orta məktəbin direktoru Vidadi Rəhimov və başqaları çıxış edərək, Sarvanın ölümü ilə gənclərə Vətəni sevməyi, onun uğrunda ölməyi öyrətdiyini diqqətə çatdırıblar və Sarvan kimi vətənpərvər qorxmaz bir əsgər olmağı tövsiyyə ediblər. 24 ildən çox işğalda qalan torpaqlarımızın azad olunmasında Sarvan Mehralıyev kimi igid oğulların da payının olduğunu bildiriblər.

Layihə rəhbəri Leyla Əlizadə layihənin məqsəd və məramını bir ailədə dördüncü şəhid sözünün mənasını tədbir iştirakçılarının diqqətinə çatdırıb. Gəncləri maraqlandıran suallar layihə rəhbəri tərəfindən cavablandırılıb.

Tədbirdə Erməni Təcavüzünün Tanıdılması İB-nin sədri Səriyyə Müslümqızı çıxışında belə layihələri maliyyə dəstəyi göstərdiyi üçün Gənclər Fondunun rəhbərliyinə minətdarlığını bildirib. O, qeyd edib ki, Xocalı soyqırımı baş verəndə, Sarvan dünyaya gəlməmişdi: "Ağlı kəsəndə öyrənmişdi ki, onun ailə üzvlərini ermənilər qəddarlıqla qətlə yetiriblər. Onun da alnına aprel döyüşünün qəhrəmanı olmaq yazılıbmış. 2016-cı il aprelin 2-də saat 10 radələrində döyüş başlamış, Namiq və Sarvan qardaşları da bu döyüşdə qəhrəmanlıq göstərmişlər. Qardaşının qucağında can verən igid əsgərin son sözü "anamı ağlamağa qoyma" olmuşdur".

S.Müslümqızı bildirib ki, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev aprel döyüclərində şəhidlik zirvəsinə yüksəlmiş, qazi olmuş döyüşçüləri mükafatlandırmış və 3 nəfər Azərbaycanın Milli Qəhrəmanı, 7 nəfər Azərbaycan Bayrağı, 2 nəfər general-mayor ali hərbi rütbəsi ilə, 43 nəfər igidliyə görə medalla təltif edilib. Sarvan Mehdiyev "İgidliyə görə" medalla təltif olunanlardan biridir.

Tədbirdə aprel döyüşlərindən bəhs edən videoçarx göstərilib.

Sonda tədbir iştirakçılarına hədiyyələr paylanılıb.

***NƏZAKƏT***



## Hafiz Hacıyevin tülküsü

İLHAM

***Qulaq gündə bir söz eşitməsə, kar olar - deyiblər. Əslində, bu məsəllə bağlı hadisələr eşitməyib, əyani şəkildə görməsəydim, mən bəlkə də, bu atalar misalına ironiya ilə yanaşardım. Amma... səhv edən yenə mən oldum. Atalar, doğrudan da, müdrik və uzaqgörən olublar. O gün təsadüfən "Müasir Müsavat" Partiyasının sədri Hafiz Hacıyevlə telefon söhbətimiz oldu. Partiya sədri birdən gözlənilmədən dedi ki, hüquqşünas Aslan İsmayılov tülküdür. Açığı sağıma-soluma boylandım və telefonuma kiminsə qulaq kəsilə biləcəyindən narahat oldum. Hər iki məqamın mümkün olmadığını başa düşəndən və görəndən sonra H.Hacıyevlə bu telefon söhbətini qapamağa çalışdım.***

Amma dünyada qəbul olunmuş bir məqamın - etik qaydaların pozulacağından ehtiyat etdiyimdən, telefonu qapamaqdan vaz keçdim. Ancaq telefonum sanki mənim nə hisslər keçirdiyimi və nə düşündüyümü başa düşdüyündən idi ki, söhbət dayandı. Düzdür, mənim telefonum bir balaca ucuzvari, həm də Bill Qeytsin ilk ixtirasının buraxılışlarındandır. Amma məni heç də çətin vəziyyətlərdə qoymayıb, işləyib. H.Hacıyevlə söhbətdə isə "nırx" deyib dayandı. Çox pərişan oldum və özümü də pis hiss etdim. Nə də olmasa, o boyda kişinin söhbətini yarımçıq qoymuşdum. Az sonra telefonum zəng çaldı, H.Hacıyev idi. Partiya sədrinin ürəyi dolu olduğundan, yenidən hüquqşünas A.İsmayılovun keçmişinə və bu gününə lənətlər yağdırdı. And içdi, bildirdi ki, mütləq və mütləq A.İsmayılovu qoduqluğa basdıracaq. Söhbətimiz əsnasında H.Hacıyev həm də, onu dedi ki, A.İsmayılovu qızışdıran, hədyanlar yağdırmağa məcbur edən Müsavat başqanı Arif Hacılı və AXCP sədri Əli Kərimlidir. Açığı təəccüblənmədim. Çünki hər kəs kimi mənə də bəllidir ki, Ə.Kərimli və A.Hacılının əsas işləri və peşələri təxribatlar törətmək, xalqını sevən və dövlətinə bağlı olan şəxsləri ləkələməyə cəhd etməkdən ibarətdir. Məni bir qədər təəccübləndirən Hafiz bəyin Rəsul Quliyevin onun haqqında dediyi sözlər oldu. R.Quliyev deyib ki, ya H.Hacıyevi öz tərəfimizə çəkməliyik, ya da öldürməliyik. Səbəbini soruşmaq istədikdə, yenə də telefonum söndü. Daha Hafiz bəy zəng etmədi. Kontur zəhrimar da olmadığından, H.Hacıyevə zəng edib, R.Quliyevin onu niyə öldürmək istədiyini soruşa bilmədim.

R.Quliyevdən söz düşmüşkən, son vaxtlar bu biçarə və müəmmalı məxluq haqqında sosial şəbəkələrdə müxtəlif yazılar və məlumatlar paylaşılıb. Yazırlar ki, R.Quliyev Neft Emalı Zavodunun direktoru olduğu zaman kitabdan-kitaba, hesabdan-hesaba keçirməklə, 52 milyon dollar mənimsəyib. Guya o zaman xalq cəbhəsi ünsürləri hakimiyyətdə olduqları zaman R.Quliyevin talançılıq və qarətinə dözməyib, onun haqqında cinayət işi qaldırıblar. Nəticəsi olmasa da, deyilənə görə, Əbülfəz Elçibəy hakimiyyətdən devriləndən sonra, deyib ki, məni Rəsulun talan etdiyi pullar yıxdı. İndi həmin o pulların hesabına R.Quliyev ABŞ-da yaşayıb, özü üçün şellənir. Hərdən bir də Müsavatın və AXCP-nin ünvanına qabında və beynindəki məlumatlardan müəyyən qədər tullayır. Bir baxımdan, AXCP ilə Müsavat funksionerləri R.Quliyevin, nəinki səsini eşitmək, heç skaypla üzünü də görmək istəmirlər. Deyirlər ki, "iti görək, qurdu görək, ancaq R.Quliyevi görməyək".

# ATƏT öz nüfuzu naminə münaqişənin həllinə çalışmalıdır

***ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri Endryu Şefer Azərbaycan hökuməti ilə Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli məsələsinə dair müzakirələri davam etdirmək üçün Bakıya səfərə gəlib. Fevralın 6-da isə ATƏT-in Minsk Qrupunun həmsədrlərinin Azərbaycana səfəri gözlənilir. Minsk Qrupunun digər həmsədrləri Stefan Viskonti (Fransa) və İqor Popov Bakıya səfərə gələcək və əsas görüşlər fevralın 7-də keçiriləcək. Səfər zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə hazırda aparılan intensiv və məntiqi əsaslı danışıqlara dair müzakirələr davam etdiriləcək.***

Nəzərdə tutulan görüş nə vəd edir? Hansı nəticələri gözləmək, nə kimi dəyişikliyə ümid etmək olar? ATƏT Parlament Assambleyasının prezidenti Georgi Sereteli Nyu-Yorkda BMT-nin yüksək vəzifəli rəsmiləri, ATƏT PA-nın baş katibi Roberto Montella, BMT Baş Assambleyasının sədri Miroslav Layçak, baş katibin müavini Vladimir Voronkov və digər rəsmilərlə keçirdiyi, bir sıra görüşlər zamanı bildirib ki, həlli uzanmış münaqişələrin nizamlanması üçün beynəlxalq oyunçular arasında sıx əməkdaşlığın davam etdirilməsi zəruridir. Tərəflər uzun müddət davam edən münaqişələr, o cümlədən, Cənubi Qafqazda həlli uzanmış münaqişələr, habelə, humanitar problemlər, miqrasiya və terrorizm məsələlərinə xüsusi diqqət yetiriblər.

Bu gün Dağlıq Qarabağ danışıqlarında iştirak edən vasitəçi ölkələr əsas məsuliyyəti Yerevanın və Bakının üzərinə yükləyir. Rusiyalı diplomat Sergey Lavrovun da, "hər şey münaqişə tərəflərindən asılıdır" bəyanatı ilə çıxış etməsi, təsdiq edir ki, həmsədrlər münaqişənin həllində məsuliyyətdən boyun qaçırır və bu məsuliyyəti tərəflərin üzərinə atır. Məhz buna görə də, araşdırmaçılar hesab edirlər ki, əgər həmsədrlərin vahid mövqeyi olsaydı, onların regionda maraqları toqquşmasaydı, Azərbaycanı və Ermənistanı hansısa bir sülh sazişinə razılaşdırmaları o qədər də çətin olmazdı.

İstər region, istərsə də dünya ölkələrinin öz maraqları var və bu maraqlar onlar üçün daha qiymətlidir. Regionda və dünyada qeyri-müəyyən şərait hökm sürür və nəzərə alsaq ki, Dağlıq Qarabağ münaqişəsi regionda marağı olan güclər üçün təsir vasitəsidir, bu şəraitdə həmsədr ölkələr də əllərində olan imkan və vasitələri itirmək istəmirlər. Deməli, hazırda Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlardan ciddi nəticə gözləmək mümkünsüzdür. Belə bir nəticəyə, yalnız maraqların üst-üstə düşməsindən və vahid mövqe nümayiş etdirilməsindən sonra ümid etmək olar.

## Danışıqlar prosesini uzatmaq və mövcud status-kvonu uzun müddət qoruyub-saxlamaq mümkün deyil

Müzakirələrin formal xarakter daşıdığı dünya ictimaiyyəti üçün sirr deyil, amma bu formal yanaşma, heç də o demək deyil ki, Dağlıq Qarabağla bağlı danışıqlar sonsuzluğa qədər davam edəcək. Bu nəticəyə ümid etmək olmaz. Tərəflər anlayırlar ki, danışıqlar prosesini uzatmaq və mövcud status-kvonu uzun müddət qoruyub-saxlamaq mümkün deyil. Yerevanda isə, çox yaxşı başa düşürlər və açıq bəyan edirlər ki, Ermənistanın konstruktiv mövqe nümayiş etdirməkdən başqa çıxış yolu qalmayıb. Müzakirələri periodik olaraq davam etdirməkdən başqa yollarının olmadığını rəsmi Yerevan başa düşür və elə buna görə də, konkret addımlardan yayınmağa çalışaraq, məsələnin həllini uzadır. Lakin Ermənistan bölgədə və dünyada yeganə dövlət deyil ki, yalnız onun maraqlarının təmin olunması ilə məsələ öz həllini tapsın. Münaqişənin mümkün eskalasiyası Rusiya üçün də, Qərb üçün də risk deməkdir. Bu, regional energi layihələri üçün də təhlükədir. Yeni savaş başlayarsa, proseslərə İran və Türkiyənin də müdaxilə edə biləcəyi ehtimalı inkar edilə bilməz. Bu isə, artıq regional savaş anlamına gəlir. Deməli, Qarabağ münaqişəsi Rusiya və Qərb üçün mövcud ziddiyyətlər şəraitində ciddi əməkdaşlıq stimulları yaradır. Elə buna görə də, ABŞ və Rusiya Bakı və Yerevanı danışıqlar masasına dəvət edir. Fransa, öz növbəsində, danışıqların davam etdirilməsini istəyir. Bu məsələdə ATƏT-in Minsk Qrupu da həmrəylik nümayiş etdirir.




İllərdir münaqişənin həlli istiqamətində vasitəçilik missiyasını üzərinə götürən Minsk Qrupu konkret bir nəticə əldə edə bilməyib. Tərəflər arasında danışıqların aparılması üçün, mütəmadi olaraq, görüşlərin keçirilməsi, artıq ənənə halını alıb. Vaxtaşırı həmsədrlərin regiona səfəri reallaşdırılsa da, münaqişə və onun həlli istiqamətində heç bir müsbət nəticə müşahidə olunmur. Lakin hadisələr belə nəticəsiz davam edə bilməz və Minsk Qrupu ən tez zamanda hər hansı bir uğura imza atmalıdır. Ən azı, ona görə ki, danışıqların dayanması, yaxud nəticəsiz başa çatması, indiki beynəlxalq proseslər fonunda, Minsk Qrupunun nüfuzunun itirilməsinə gətirib çıxara bilər. İllər boyu danışıqların və görüşlərin, bir sözlə, fəaliyyətin tərəflər arasında nəticə verməməsi mötəbər bir qurumun nüfuzunu şübhə altına alır və bu baxımdan, həmsədrlərin görüşü təkcə tərəflər üçün deyil, həm də Minsk Qrupunun özü üçün də çox vacib hesab olunur.

## Separatçılar ölkəmizin hərbi qüdrəti qarşısında davam gətirmək iqtidarında deyillər

Digər tərəfdən, münaqişənin həlli, daha dəqiq desək, Dağlıq Qarabağın terrorçulardan təmizlənməsi, torpaqların geri qaytarılması üçün danışıqlar heç də yeganə yol deyil. Hərbi əməliyyatlarla da buna nail olmaq olar. Azərbaycanın belə hərbi əməliyyatlarla öz torpaqlarını terrorçulardan təmizləməyə, torpaqlarını geri qaytarmağa qüdrəti çatır və aprel döyüşləri sübut etdi ki, separatçılar ölkəmizin hərbi qüdrəti qarşısında davam gətirmək iqtidarında deyillər. Hərbi əməliyyatlara başlanarsa, ən tez zamanda düşmənin sarsılacağı dünya ictimaiyyətinə bəllidir. Belə olan təqdirdə təkcə Minsk Qrupu deyil, vasitəçilik missiyasını üzərinə götürmüş bütün beynəlxalq qurumların nüfuzunun sıfıra enəcəyini özləri də hamıdan yaxşı başa düşürlər. Məhz buna görə də, beynəlxalq qurumlar da münaqişənin həllində maraqlı olmalıdırlar və bu mənada, danışıqlara optimist yanaşmaq məntiqə uyğundur. Həm də belə danışıqların və görüşlərin faydasız qalacağı təqdirdə, hərbi müdaxilənin vacibliyi təsdiq olunur və bu da, öz növbəsində, hərbi əməliyyatlara haqq qazandırır. Çünki özünə hörmət edən heç bir ölkə sərhədlərində terror qruplaşmalarının fəaliyyətinə razı ola və milli təhlükəsizliyinə təhdid yaradılmasına göz yuma bilməz.

## Azərbaycan öz ərazilərində terror qruplaşmalarının fəaliyyətinə razı ola bilməz

Azərbaycan öz sərhədlərində terror qruplaşmalarının fəaliyyətinə razı ola bilməz və milli təhlükəsizliyinə təhdid yaranmasına izn verməz. Məhz belə bir təhlükənin və gözlənilən təhdidlərin olma ehtimalı Azərbaycana əsas verir ki, Qarabağda antiterror əməliyyatlarına istənilən vaxt start verilsin. Azərbaycan Ordusunun Qarabağı işğaldan azad etmək, qaçaqmalçılığın, narkotik vasitələrin dövriyyəsinin, qanunsuz silah ticarətinin qarşısını almaq üçün antiterror əməliyyatına başlaması beynəlxalq hüquq normalarına tam uyğundur, daha doğrusu, beynəlxalq hüququn tələbidir. Məhz buna görə də, heç bir dövlət, heç bir qurum, hətta ermənilərin öz lobbiləri belə bu antiterror əməliyyatlarında Azərbaycanı günahlandıra bilməz. Torpaqlarını terrorçulardan və terrorçuluğun acı nəticələrindən mühafizə etmək hər bir ölkənin haqqı və hüququdur. Demokratiya adı altında ikili standartlar siyasəti yürüdən qurumlar belə bu hüquqları müdafiə etmək məcburiyyətindədir.

Antiterror əməliyyatlarına başlamazdan öncə, müşahidəçi mövqe nümayiş etdirən, əməliyyatlara başlanıldığı zaman isə aktiv fəaliyyətə keçib hərbi əməliyyatların dayandırılmasına səy göstərən təşkilatlar və qurumlar əvvəlcədən öz fəaliyyətlərini elə təşkil etməlidirlər ki, belə əməliyyatlar lazım olmasın. Daha dəqiq desək, terror təhlükəsinin və terrorun danışıqlar yolu ilə alınmalıdır ki, insan tələfatına səbəb olacaq əməliyyatlara ehtiyac duyulmasın. Belə danışıqlar, sülh tərəfdaşlığı çərçivəsində məsələnin razılaşmalarla həlli missiyasını öz üzərinə götürən təşkilatlar vahid mövqedən çıxış edərək, münaqişələrin nizamlanmasına nail olmalıdırlar. Digər beynəlxalq təşkilatlar kimi, məhz ATƏT də Ermənistan-Azərbaycan münasibətlərinə zamanında aydınlıq gətirməli və terrorçuların Azərbaycan torpaqlarından çıxarılmasını təmin etməlidir. Əks halda, onsuz da Azərbaycan, hərbi yolla da olsa, öz ərazi bütövlüyünü təmin edəcək, terrorçulardan öz torpaqlarını təmizləyəcək. Amma sülh və danışıqlar yolu ilə məsələnin həllini öz üzərinə götürən ATƏT kimi qurumlar öz nüfuzlarını tamamilə itirəcək. Hazırda dünyada terror əleyhinə cərəyan edən hadisələr, onu deməyə əsas verir ki, tezliklə digər ərazilər kimi, Qarabağda da terrorun kökünün kəsiləcəyi inkar edilə bilməz. Lakin ATƏT kimi danışıqlar yolu ilə məsələnin həlli missiyasını öz üzərinə götürən təşkilatlara, ilk öncə, münaqişənin həlli istiqamətində əməli addımlar atmaq, müsbət nəticələr əldə etmək tövsiyə olunur ki, öz nüfuzlarını, imiclərini və nəhayət, varlıqlarını qoruya bilsinlər. Bir sözlə, ən azından, ATƏT öz nüfuzu naminə münaqişənin həllinə çalışmalıdır.

***İnam HACIYEV***

---

## Gənclər Fondu Cocuq Mərcanlıda uşaqlar üçün oyun meydançası inşa edəcək

Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu (AZGF) Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (UNDP) və Bəhreyn Krallığının təşəbbüsü və tərəfdaşlığı ilə təsis edilmiş "Davamlı inkişafa nail olmaq üçün gənclərin gücləndirilməsi" King Hamad mükafatına layiq görülüb.

Bunu AZGF-nin icraçı direktoru Fərhad Hacıyev Fondun hesabat konfransında bildirib. Fonddan AZƏRTAC-a bildiriblər ki, AZGF-nin qazandığı mükafatın məbləği 25 min dollardır. Fərhad Hacıyev bu məbləğin Cocuq Mərcanlıda uşaqlar üçün oyun meydançasının salınmasına ayrılacağını qeyd edib.

## "Azərişıq" ASC-dən "ASAN xidmət" vasitəsilə daha bir yenilik

"Azərişıq" ASC-dən "ASAN xidmət" vasitəsilə daha bir yenilik edilib. Artıq əhali-abonentlər bölgələrdəki bütün "ASAN xidmət"lər vasitəsilə evinə, bağına və ya həyətinə işıq çəkdirə biləcək. ASC-nin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, "Azərişıq" "ASAN xidmət" vasitəsilə həyata keçirdiyi xidmətlərin əhatəsi bir qədər də genişləndirilib. ASC-nin "ASAN xidmət" vasitəsilə həyata keçirdiyi 10 xidmət arasında əsas yeri və "Doing bisness"in tələblərinə uyğun olaraq xüsusi çəkisi olan "istehlakçıların elektrik təchizatı şəbəkəsinə qoşulması" və ya texniki şərtlərin verilməsi adlandırılan xidmət artıq bütün ölkə üzrə təmin edilməkdədir.

Əgər indiyədək əhali abonentlərin elektrik şəbəkəsinə qoşulması Bakı, Sumqayıt, Quba "ASAN xidmət" və "ASAN kommunal"ları vasitəsilə həyata keçirilirdisə, indi Gəncə, Sabirabad, Bərdə, Qəbələ və Masallıda fəaliyyət göstərən bütün "ASAN xidmət" və "ASAN kommunal"lar vasitəsilə bölgələrdəki insanlar evinə, bağına, yaxud həyətinə işıq çəkdirə biləcəklər. Eyni zamanda, "Doing bisness"in qiymətləndirmə tələblərində başlıca yer tutan sahibkarların daha asan və sadə yolla elektrik şəbəkəsinə qoşulması istiqamətində də ciddi addımlar atılır. Artıq paytaxtdakı "ASAN kommunal" mərkəzlərindən əlavə Sumqayıt, Gəncə və Quba "ASAN kommunal" mərkəzlərində də 150 kVt-a qədər qeyri-əhali abonentlərin tikinti, ticarət, iaşə və digər obyektlərinə işıq çəkdirə bilirlər. Ən qısa vaxtda 150 kVt-a qədər qeyri-əhali abonentlərin obyektlərinə işıq çəkilmə prosesinin digər rayonlardakı "ASAN xidmət" mərkəzlərini əhatə edəcəyi gözlənilir. Bununla bağlı tezliklə yeniliklər olacaq və dərhal ictimaiyyət məlumatlandırılacaq. Başqa bir yenilik isə sahibkarlıq obyektlərinin elektrik şəbəkəsinə qoşulma prosesinin daha sadə və çevik formada aparılmasının "Azərişıq" ASC-nin elektron xəritəsi üzərindən həyata keçirilməsi və bunun bölgələrdə də tətbiqidir.

SİYASİ RAKURS

# Rəsul Quliyev-Hüseyn Abdullayev qapışması davam edir

*Eks-spikerlə sabiq deputat ağır təhqirlərə keçiblər*




***Rəsul Quliyev-lə Hüseyn Abdullayev arasında başlanan qalmaqal şiddətli müstəviyə keçib. Tərəflər bir-birilərini daha ağır tonda təhqir atəşinə tutmağa başlayıblar. Maraqlıdır ki, adıçəkilən hər iki şəxs zamanında cinayətkar əməllər törədərək, sonda həmin əməllərinə görə qanun və ədalət qarşısında cavab verməli olduqlarından qorxub, Azərbaycandan qaçıblar. Halbuki bu gün özlərini müxalifətin "aktiv mübarizləri" kimi tanıtmağa səy göstərən R.Quliyev və H.Abdullayev hələ də xarici ölkədə xalqdan və dövlətdən oğurladıqları pullar hesabına yaşayırlar. Bütün bunlarla yanaşı, bu iki fərd utanmadan bu il keçiriləcək prezident seçkisinə qatılmaq iddialarını da ortaya qoymaqla, nə qədər siyasi həyasızlıq sindromuna tutulduqlarını açıq-aşkar sərgiləməkdədirlər.***

Xatırladaq ki, R.Quliyev bununla yanaşı, eks-prezident Əbülfəz Elçibəyin 1992-ci ildə keçirilmiş seçkilərdə saxta yollarla seçildiyini iddia edərək, bu gün özlərini onun davamçıları adlandıran müxalifət "liderlərinin" də saxtakar olduqlarını sosial şəbəkədəki statusunda qeyd edib. Nəticədə, o, AXP sədri Pənah Hüseyn və Elçibəyin köməkçisi olmuş Oqtay Qasımovun sərt açıqlamaları ilə də qarşı-qarşıya qalıb. Misal üçün, P.Hüseyn "Mən güman eləmirəm ki, Rəsul Quliyev "Əbülfəz Elçibəy saxtalaşdırılmış seçkilərlə prezident seçilmişdi" kimi sərsəm açıqlama versin. Əgər həqiqətən də, o cür açıqlama veribsə, bu, yalnız Rəsul Quliyevin hansısa ruhi vəziyyətindən xəbər verə bilər" cavabını verib.

O.Qasımov isə "Rəsul Quliyevin dedikləri psixoloji problemlərindən irəli gəlir. Əbülfəz Elçibəy deyirdi ki, məni sənin pulların yıxdı, Rəsul" açıqlamasını verərək, eks-spikerin iddialarına kəskin reaksiya bildirib.

**Hüseyn Abdullayev: "Rəsul Quliyev, sən haranın itisən?"**

Siyasi gündəmdə qalmaq üçün sabiq spikerin H.Abdullayevi potensialı olmayan şəxs adlandırmasının ardınca, qarşı tərəf onu "primitiv və özünün gülünc danışıq tərzi ilə boşboğazlıq edən şəxs" adlandırıb. Üstəlik, ona "Sən haranın itisən?" sualını da verib.

Maraqlı cəhətlərdən digəri isə R.Quliyevin Azərbaycandakı nümayəndəsi kimi təqdim edilən Gələcək Azərbaycan Partiyasının sədri Ağasif Şakiroğlunun, nədənsə, bu dəfə onun müdafiəsinə qalxmaması oldu. Çünki son illərdə A.Şakiroğlu R.Quliyevə qarşı olan istənilən açıqlamaya dərhal cavab verirdi, hətta həmin açıqlamalar ən sərt ifadələrlə müşahidə olunurdu. Ümumiyyətlə, GAP sədrinin son zamanlar R.Quliyevdən imtinasını onlara adıçəkilən şəxs tərəfindən maliyyə axınının dayandırılması ilə də əlaqələndirmək mümkündür.

**Rəsul Quliyev Hüseyn Abdullayevə: "Başqalarının əsərlərindən musiqi kompozisiyaları yaradıb, özünü böyük bəstəkar hesab etməsi, onda özünə qarşı müştəbehlik hissi yaradıb"**

Məhz buna görədir ki, H.Abdullayevin cavabını da elə R.Quliyevin özü verməli olub. O, H.Abdullayevə xitabən deyib: "...Başqa tip insanlar da mövcuddur. Onların xəmirləri tərbiyəsizliklə yoğrulub. Beş-on manatının olması, başqalarının əsərlərindən musiqi kompozisiyaları yaradıb, özünü böyük bəstəkar hesab etməsi onda özünə qarşı müştəbehlik hissi yaradıb. Özünü hər şeyə qadir şəxsiyyət hesab edir. Bu insanlar ancaq tərbiyəsizliklə diqqəti cəlb edə bilərlər. Bu tiplilərə-xalqa bir qəpiklik xeyri dəyməyən adamlara cavab verməyi heç vaxt özümə layiq görmərəm, belə də davam edə bilər..."

Beləliklə, seçkilərə qalmış az müddətdə parçalanmış müxalifət daha pis vəziyyətə düşüb. Bunun isə səbəbi hər kəsə gün kimi aydındır - xalqın onlardan imtina etməsi. Daha dəqiq desək, bir-birilərini xalq qarşısında ən ağır və təhqiramiz ifadələrlə suçlayanları sağlam düşüncəli cəmiyyət və ictimai rəy üzvü heç vaxt qəbul edə bilməz!

***Rövşən RƏSULOV***

# "İsa Qəmbərlə Əli Kərimli arasında körpülər yanıb"

*Əli Orucov: "Əl Kərimlinin prezident seçkilərinə qatılacağını proqnozlaşdırmıram"*



***Müsahibimiz AMİP funksioneri Əli Orucovdur***

***- Əli bəy, Müsavat daxilində cərəyan edən ziddiyyətli proseslərə və İsa Qəmbərin səhhətində yaranan problemlər səbəbindən, bu partiyadan yeni namizədin üzə çıxması nə dərəcədə mümkündür?***

- Müsavat partiyasından fərqli namizədin irəli sürüləcəyini güman etmirəm. İ.Qəmbərin səhhətində ciddi problemin qalması barədə məlumatlara da rast gəlməmişəm. Bu baxımdan, demək olar ki, Müsavatın sabiq başqanı, hələ ki prezidentliyə namizədliyində israrlı görünür.

***- Əli Kərimli müxalifətdaxili ziddiyyətlərdən və İsa Qəmbərin səhhətində yaranan problemlərdən istifadə edib onun vahid namizədi dəstəkləmək çağırışı ilə çıxış edə bilərmi?***

- İ.Qəmbərlə Ə.Kərimli arasında körpülər yanıb. Hər ikisi bir-birilərinə qarşı tərəfdaş deyil, rəqib kimi yanaşırlar. Eyni zamanda, Müsavat və AXCP zaman-zaman eyni koalisiyalarda təmsil olunsalar da, hər dəfə bir-birilərinə qarşı şübhəli davranıblar. Biri digərini yarı yolda buraxıb. Bu partiyalar arasında münsibətlərdə də ciddi problemlər var. Ə.Kərimlinin də, İ.Qəmbərin də iddiaları böyük olduğundan, bir-birilərinə güzəştə gedəcəkləri inandırıcı deyil. Ə.Kərimlinin prezident seçkilərinə qatılacağını proqnozlaşdırmıram.

***- Hazırda "Milli Şura" daxilində Əli Kərimliyə qarşı narazılıq da mövcuddur. Bu baxımdan, necə düşünürsünüz, başqa namizədlər ortaya çıxa bilərmi?***

- Bu variant istisna deyil. Ancaq ortada olan vəziyyəti nəzərə alaraq, deyə bilərəm ki, nə Müsavat partiyası, nə də AXCP ikisi birlikdə, hansısa kənar namizədi dəstəkləmələri ehtimalı çox azdır. Çünki ortada, ən azından, Rüstəm İbrahimbəyov təcrübəsi var. Bu, çox uğursuz oldu. Ümumiyyətlə, mənim qənaətimcə, nə Ə.Kərimli, nə də C.Həsənli 11 aprel prezident seçkilərində iştirak etməyəcəklər. Seçki mühiti onlara görə deyil.

***GÜLYANƏ***

# Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçiriləcək



ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, fevralın 6-da Tərtər rayonu ərazisində yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinqin keçirilməsi planlaşdırılır. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik və onun səhra köməkçisi Mixail Olaru keçirəcəklər. Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində isə monitorinqi şəxsi nümayəndənin səhra köməkçiləri Gennadi Petrika, Oqnyen Yoviç və Martin Şuster aparacaqlar.

# "Ermənistana qarşı sanksiyalar tətbiq edilməlidir"



"ATƏT-in Minsk Qrupu həmsədrlərinin regiona səfəri adətən texniki xarakter daşıyır". Bunu SİA-ya açıqlamasında siyasi şərhçi Elçin Mirzəbəyli deyib. Onun sözlərinə görə, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşlərindən sonra bu səfərin həyata keçirildiyini nəzərə alsaq, o zaman belə qənaətə gəlmək olar ki, səfərin əsas məqsədi tərəflər arasındakı daha öncə müzakirə olunan məsələlər ətrafında müzakirə aparmaqdan ibarətdir: "Prinsip etibarilə həmsədrlərin səfəri ənənəvi xarakter daşıyır və bu bütövlükdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə hər hansı bir formada təsir göstərə bilməz. Həmsədrlər yalnız tərəflərin mövqeyini öyrəndikdən sonra ya XİN rəhbərlərinin növbəti görüşünü, ya da prezidentlərin görüşünü təşkil edir".

E.Mirzəbəyli əlavə edib ki, bütün bunlara baxmayaraq Ermənistanın mövqeyi prinsip etibarilə ortalıqdadır: "Ermənistan tərəfi hər dəfə danışıqlar prosesində razılaşma məqamları olduqda özünün qeyri-konstruktiv mövqeyini nümayiş etdirir və danışıqların pozulmasına zəmin yaradır. Məqsəd status-kvonu qoruyub saxlamaqdan ibarətdir. Əgər Ermənistan yenidən qeyri-konstruktiv mövqe nümayiş etdirərsə, o zaman beynəlxalq hüququn prinsiplərindən irəli gələn sanksiyaların işə düşməsi istiqamətində addımlar atılmalıdır".

# Vətəndaşlardan qanunsuz saxlanılan silah-sursat götürülüb

İstirahət günlərində daxili işlər orqanlarının əməkdaşları tərəfindən qanunsuz saxlanılan silah-sursatın aşkarlanaraq götürülməsi istiqamətində uğurlu əməliyyat və profilaktik tədbirlər keçirilib. Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində DİN-in Baş İctimai Təhlükəsizlik İdarəsi və Neftçala Rayon Polis Şöbəsinin əməkdaşları şəhər sakini Xalid Abdullayevdən "İJ-12" markalı tüfəng və 47 patron, Sabirabad Rayon Polis Şöbəsinin əməkdaşları rayon sakinləri Rizvan Fərzəliyevdən, Elməddin, Nemət və Araz Soltanovlardan müvafiq sənədləri olmayan ümumilikdə dörd "İJ" markalı tüfəng və 37 patron, Oğuz Rayon Polis Şöbəsinin əməkdaşları Bayan kənd sakini, əvvəllər məhkum olunmuş Vaqif Fərzəliyevdən "İJ-16" markalı tüfəng götürüblər. Bakı şəhər sakini Əzizağa Vəliyev isə istifadəyə yararsız vəziyyətdə olan "Cobra" markalı tüfəngi və "İJ-53-M" markalı pnevmatik tapançanı könüllü olaraq Binəqədi Rayon Polis İdarəsinin 4-cü polis bölməsinə təhvil verib.

# Cəlilabad rayon sakinindən bir kiloqramdan çox heroin götürülüb



Xəzər Rayon Polis İdarəsi əməkdaşlarının əldə edilən əməliyyat məlumatı əsasında keçirdikləri tədbirlər nəticəsində narkotik satışında şübhəli bilinən şəxs saxlanılıb. Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, araşdırmalarla onun Cəlilabad rayon sakini Bəhruz Əbilov olduğu məlum olub. Baxış zamanı ondan çəkisi 1 kiloqram 200 qram heroin aşkar edilib. Saxlanılan şəxs götürülmüş maddi sübutla birgə istintaqa təhvil verilib. Faktla bağlı cinayət işi başlanılıb.

# Dövlət və qanun azadlıq hüququnun təminatçısı kimi

***Hər bir cəmiyyətin öz xarakterinə və inkişaf səviyyəsinə uyğun olan hüquq sistemi qərarlaşır ki, onun başlıca məqsədi ictimai münasibətlərin müxtəlif tərəflərini səmərəli surətdə tənzimləməkdir. Onun formalaşması bir tərəfdən, ictimai şüur forması kimi götürülən hüququn inkişaf səviyyəsi, digər tərəfdən isə, siyasi hakimiyyəti və məcburi normaları həyata keçirən dövlətin fəaliyyətinin xarakteri ilə sıx bağlı olur.***

Həmin fəaliyyətin çox mühüm istiqaməti vətəndaşların hüquq və azadlıqlarının reallaşdırılmasına şərait və imkan yaradılması, onların həyata keçirilməsinin təmin edilməsidir. Hüquqa, özündə vətəndaşların azadlıqlarını əks etdirən normalar məcmusu kimi yanaşdıqda, sözügedən səpkinin rolu və əhəmiyyəti daha aydın görünür. Hüquq sistemi ilə azadlığın reallaşması arasında vəhdət aşağıdakı məqam ilə izah olunmalıdır. İnsana hüquq münasibətləri baxımından yanaşdıqda, o, sosial-mənəvi mahiyyət kəsb edən müstəqil varlıqdan daha çox, ictimai münasibətlərin iştirakçısı, buna görə də, müəyyən normaların və vəzifələrin daşıyıcısı, subyekti kimi çıxış edir. Cəmiyyətdə fərdin bu statusa malik olmasında, onun azadlıqları haqqında rəsmi sənədlərdə təsbit edilənlərin real həyatda yerinə yetirilməsi müstəsna dərəcədə böyük yer tutur. Bunu həm də onda görmək olar ki, azadlıq ideyasının cəmiyyətdə dərk olunması, xalqın azad şəraitdə yaşamağa hazırlıq səviyyəsi, mövcud hüquq sisteminin, xüsusilə də, hüquq normalarının və hüquqi düşüncənin inkişafının çox mühüm göstəricisidir.

Fəlsəfə elmləri doktoru Qərib Allahverdiyev göstərir ki, hər bir cəmiyyətdə hüququn mahiyyəti onun azadlığa münasibətində ifadə olunur. Bu mənada azadlığı, həm də müəyyən hüquq kimi qəbul etmək olar. Hüquqi normaları azadlıqla yaxınlaşdıran mühüm bir cəhət, onların konkret xarakter daşımasıdır. Başqa sözlə deyilsə, bu normalar ümumi mücərrəd insan idealından daha çox, mövcud cəmiyyətin vətəndaşına yönəlir, insanlar arasında real münasibətləri tənzim etmək məqsədi güdür. Buradan da hüquqi normaların ictimai münasibətlərdə və cəmiyyət həyatının bütün tərəflərində fərdlərin praktiki azadlığının həyata keçirilməsinin güclü mexanizminin olması üzrə çıxır. Hüquq normaları və qanunlar fərdləri özbaşınalıqlardan müdafiə edir və beləliklə də, onların hüquq və azadlıqlarının real təminatçısı rolunu oynayır. Bu mənada, öz davranış və hərəkətlərində qanunların normativ hüdudlarından kənara çıxan şəxslərin hüquq və azadlıqlarının dövlət tərəfindən məhdudlaşdırılması tamamilə təbiidir. Belə ki, əslində, qanunlar azadlığın hüdudlarını müəyyənləşdirməkdən daha çox, azadlığın əldə olunmuş səviyyəsi qanunların hədlərini ifadə edir. Sözügedən məqam dövlətin və qanunun və azadlığın əsl müdafiəçisi olduğunu göstərir. Hüquqi qanunlar, fərdlərin fəaliyyətini tənzim etməyin, onların azadlıqlarını reallaşdırmağın mexanizmi kimi çıxış etməklə, insanlar arasında münasibətləri, habelə, onlarla dövlətin münasibətlərini nizama salır, bu proseslərin, iştirakçılarının hüquq və vəzifələrini müəyyənləşdirir. Bunlardan kənarda isə, real azadlığı təsəvvür etmək qeyri-mümkündür. Qanunlar insan azadlığının hansı hüdudlar daxilində olmalı olduğunu ifadə etməklə, həm də onun başqa insanlar tərəfindən mümkün olacaq pozuntusuna qarşı çıxır. Sonuncu hal özünü göstərdikdə, dövlət məcburedici sanksiya yerinə yetirməklə, pozulmuş hüquqları və azadlıqları bərpa edir. Məlum olduğu kimi, cəmiyyətin hər bir üzvü öz dünyagörüşünə və mənəviyyatına uyğun olaraq, ictimai həyatın bütün sahələrində azadlığa can atır, öz azad inkişafını təmin etmək üçün iqtisadi, sosial və mədəni hüquqlarını həyata keçirməyə çalışır. Bu istək, müəyyən mənada, təbii və məqbul hesab olunmalıdır. Lakin onun reallaşması üçün təkcə subyektiv arzu və cəhdlər kifayət deyildir. Birinci növbədə, cəmiyyətdə bunun üçün lazım olan real şəraitin və müqəddəm şərtlərin mövcudluğu zəruridir. Əks halda, azadlıq xoş niyyətlərin hüdudunu aşa bilməz. Qeyd olunan iki tərəf (fərdi istəklər və ölkənin real inkişaf səviyyəsi) arasında uyğunluğun səviyyəsi, məhz dövlətin qanunları və normativ aktlarında ifadə olunur. Bu baxımdan, A.Spirkinin aşağıdakı fikri ilə razılaşmaq olar: "Hüquq cəmiyyətdə azad insanların mövcud olmasının zəruri şərtidir. Əgər sən azad olmaq istəyirsənsə, onda başqalarına azadlıq verilməsi naminə öz azadlığını məhdudlaşdırmalısan".

Cəmiyyətin verdiyi azadlıqların hüquqi normalar daxilində müəyyən olunması, bir də ona görə mühüm əhəmiyyətə malikdir ki, o, azadlıqdan sui-istifadə edilməsi imkanlarını məhdudlaşdırır. Bu yol ilə həm də müəyyən fərd tərəfindən, digər insanların azadlığına xələl gətirilməsinin qarşısı alınır. Deyilənlərdən aydın olur ki, ayrıca bir fərdin və bütövlükdə, cəmiyyətin həyat fəaliyyətinin bütün sferalarında azadlığın real təcəssümü hüququn və qanunun aliliyinə əsaslanır. Bu münasibətdə aşağıdakı fikir çox haqlı səslənir: "Qanun olmayan yerdə, azadlıq da yoxdur".

Fəlsəfə elmləri doktoru Qərib Allahverdiyev göstərir ki,Qərbdə hələ yeni dövrdən özünü göstərməyə başlayan dövlətin mülki-antropoloji baxımdan yenidən səmtləşməsi meyli, müasir şəraitdə daha aydın ifadə olunur. O, azadlığın dövlət və hüquqi təminatında, xüsusilə, əhəmiyyətli yer tutur. Qeyd olunan meylin müasir dövrdə daha da güclənməsi təsadüfi deyildir. Bu, onunla şərtlənir ki, indiki şəraitdə hər bir insanın həyat fəaliyyətinin bütün sferalarında özünün azad varlığını reallaşdıra bilməsi üçün dövlətə böyük ehtiyac vardır. Bəzən belə yanlış təsəvvürlərə rast gəlinir ki, guya hüquqi normalar və qanunlar azadlığın həyata keçirilməsinə maneələr yaradır. Bu baxışın heç bir elmi əsası yoxdur. Əslində, hüquqi cəhətdən təsbit olunmuş normalar nəinki azadlığa qarşı durmur, əksinə, onun reallaşması üçün zəruri olan şərtləri təmin edir. Bu mənada, K.Marksın aşağıdakı fikri diqqəti cəlb edir: "Hüquqi cəhətdən qəbul edilmiş azadlıq dövlətdə qanun şəklində mövcuddur. Ağırlıq qanunu, hərəkətə qarşı cəza tədbiri olmadığı kimi, qanunlar da azadlığa qarşı cəza tədbirləri deyildir".

Dövlət qanunu formasında çıxış edən hüquq normaları, insanların davranış və hərəkətlərinin vacib və mümkün olan, habelə, qadağan olunan hədlərini ifadə etməklə, özbaşınalığa yol vermir. Həmin normalara əməl olunması, dövlətin inzibati orqanları tərəfindən məcburi qaydada tənzim və təmin edilir. Cəmiyyət inkişaf edib təkmilləşdikcə, ona müvafiq surətdə hüquq sistemi də yeniləşir. Həmin istiqamətdə baş verən dəyişikliklərin mühüm bir tərəfini azadlığın genişlənməsi və reallaşması mexanizminin mükəmməlləşməsi təşkil edir. Bu baxımdan yanaşdıqda, qeyd olunmalıdır ki, ölkəmizdə milli müstəqillik əldə olunduqdan sonra, dövlət və hüquq sistemi ilə insanların azadlıqlarının reallaşması arasındakı münasibətlərdə keyfiyyətcə yeni mərhələ yarandı. Onun səciyyəvi cəhətini azadlığın təminatçısı kimi dövlətin və hüququn rolunun daim artması təşkil edir. Qeyd olunan məqam göstərir ki, vətəndaş cəmiyyətinin formalaşması hüquq sistemində azadlıqların reallaşmasına əlverişli şərait yaradır. Bu, onunla izah edilir ki, vətəndaş cəmiyyəti insanların hüquq və azadlıqlarının vəhdətinə əsaslanır. Təsadüfi deyildir ki, İ.Kant vətəndaş cəmiyyətinin aşağıdakı üç təməl prinsipinə malik olduğunu qeyd edirdi: cəmiyyətin hər bir üzvünün insan kimi azadlığı, onun təbəə kimi başqaları ilə bərabərliyi və vətəndaş kimi müstəqilliyi .

Fəlsəfə elmləri doktoru Qərib Allahverdiyev göstərir ki, hüquq ilə azadlığın qarşılıqlı təsirdə inkişaf etdiyini qeyd edərkən, nəzərdən qaçırılmamalıdır ki, son məqsəd mövqeyindən yanaşdıqda, ikinci tərəf aparıcı yer tutur. Belə ki, azadlıq ideyasının cəmiyyətdə və ictimai şüurda dərk olunması səviyyəsi və vətəndaşların bu şəraitdə yaşamağa necə hazır olmaları, hüquq normalarının və bütövlükdə, hüquq sisteminin təkmilləşməsi istiqamətinin əsas göstəricidir. Buna görə də, hər bir sivil cəmiyyətdə insanlarının azadlığının inkişafı, əhalinin ictimai şüurunun, xüsusilə, hüquqi düşüncənin və hüquq mədəniyyətinin təkmilləşməsi ilə paralel aparılmalıdır. Əks halda, nə azadlıqlar özünün adekvat mənasını kəsb edər, nə də hüquq normaları azadlığın tənzimləyicisi rolunu lazımi səviyyədə yerinə yetirə bilər. Bu baxımdan yanaşdıqda, qeyd olunmalıdır ki, milli müstəqillik əldə edildikdən sonra ölkəmizdə baş verən əsaslı və hərtərəfli dəyişikliklər, bir tərəfdən, vətəndaşların şüurunun və hüquqi düşüncənin inkişafına, deməli, insanların birgəyaşayış qaydalarına əməl olunmasının zəruriliyini anlamasına, digər tərəfdən, milli-mənəvi dəyərlərə arxalanan azadlığın genişlənməsinə güclü təsir göstərir.

Ümumilikdə götürdükdə, hüquq normaları, qanunlar dövlət tərəfindən məcburetmə vasitələri ilə mühafizə olunan ictimai münasibətlərin bütün tərəflərində hüquqi tənzimlənməni həyata keçirən və zorakılığa əsaslanan sosial normalar sistemidir.

Bu tərifdən də, görünür ki, hüquq normaları, dövlətin məcburedici iradəsini həyata keçirir. Onlarda insanların azadlıqları da müəyyən hədlər daxilində ifadə olunur. Bununla əlaqədar, qeyd edək ki, bəzən məqamın rolunu şişirdərək, bir sıra nəzəriyyələr (marksizm, anarxizm və s.) dövləti və insanların azadlığını məhdudlaşdıran siyasi institut kimi səciyyələndirir. Məsələn, marksizmə görə dövlətin mahiyyəti bir sinfin digər sinif üzərində ağalığını həyata keçirməkdən ibarətdir. Anarxizmin tərəfdarları isə, daha sərt mövqe tutmaqla, göstərirlər ki, dövlətin mövcudluğu cəmiyyətdəki bədbəxtliklərin əsas səbəbidir, o, həm də azadlığın düşmənidir. Bu qəbildən olan baxışlar həqiqətə uyğun deyildir, çünki dövlət, azadlıqları müəyyən hüquqi çərçivəyə salmaqla, onları, nəinki boğmur, əksinə, onların başqaları tərəfindən pozulmasına yol vermir, beləliklə də, mövcud azadlıqların qorunmasının təminatçısı kimi çıxış edir.

Hüquq normalarının guya azadlığa qarşı durduğu barədə yanlış təsəvvürlərin yaranmasına belə bir fakt müəyyən qida vermişdi. Son vaxtlara qədər dövlətin qanunlarında, buna xüsusi ehtiyacın olmadığı bəzi əməllər üstündə həbs cəzası nəzərdə tutulurdu (məsələn, borca görə insanların azadlıqdan məhrum edilməsi). Bir sıra mütəfəkkirlər, o cümlədən, dünya şöhrətli N.Viner bunun ümumi azadlıq qayəsi ilə uyğun gəlmədiyini göstərirdilər . Bu qəbildən olan etiraz və iradları nəzərə alaraq, 1963-cü ildən etibarən Avropa İnsan Hüquqları Konvensiyasına edilən əlavədə borca görə həbsə alma qadağan olundu. Yeri gəlmişkən, deyək ki, bazar münasibətlərinin formalaşmaqda olduğu ölkəmiz üçün bu xüsusi önəm kəsb edir. Çünki kəskin biznes rəqabətinin nəticələri, heç də həmişə irəlicədən bəlli olmayan sövdələşmələr şəraitində insanların borclu vəziyyətə düşməsi ehtimalı xeyli çoxalır. Buna görə də, borcluluğa görə yuxarıda qeyd olunan sərt cəzanın verilməsi, insanların xeyli qisminin azadlıqdan əsassız surətdə məhrum olunması ilə nəticələnə bilir.

İlk nəzərdə, belə görünür ki, qanunlar insanların fəaliyyətinin hüquqlarını və yol verilən hədlərini müəyyən etdiyindən, onlar azadlığa qarşı çevrilir. Əslində isə, hüquqi normalar, azadlıqların hüdudlarını göstərməklə, onun həyata keçirilməsinin real mexanizmini əks etdirir. Hüquq ilə azadlığın fərqini və vəhdətini V.Malaxov aşağıdakı kimi ifadə edir: "Bir tərəfdən azadlıq, hüququn həyata keçirilməsinin xarici şərtidir. Digər tərəfdən, o, insanın daxili vəziyyətinin gerçəkliklə uyğunluğunu göstərir. Əgər insan nəyəsə məcbur edilmirsə, o zahirən azaddır. Hüquqi mənada isə, insan sosial strukturda müəyyən yer tutduqda, azad hesab olunur. İnsanın daxili hüquqi azadlığı, hüquqi varlığının azadlığı, onun müəyyən sosial-mənəvi dəyərlərə can atması, habelə, onları yerinə yetirməkdə israrlı olması və geridönməzliyidir".

**Vahid ÖMƏROV,**
*fəlsəfə üzrə fəlsəfə doktoru*




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

səs

Son səhifə

6 fevral

## Misirdə divar naxışları olan məqbərə tapılıb



Misir arxeoloqları Böyük Giza ehramı yaxınlığında yaşı 4 min ildən çox olan məqbərə tapıblar. AZƏRTAC Misir KİV-lərinə istinadla xəbər verir ki, qəbir fironun beşinci sülaləsinə yaxın olan Hetpet adlı qadına məxsus olub. Məqbərənin divarları naxışlarla örtülüb. Ehtimal var ki, bəzi rəsmlərdə ova və balıq tutulmasına tamaşa edən Hetpetin özü, digərlərində isə meyvə yığıb, rəqs edən əhliləşdirilmiş meymunlar təsvir edilib. Məqbərədə qadının mumiyası aşkar olunmayıb. Giza nekropolu Qədim Misirin paytaxtı Memfis ərazisində yerləşən böyük qəbiristanlıq kompleksidir. Buraya Giza ehramı, Sfinks heykəli, kiçik ehramlar və digər tikililər daxildir.

## Gənc ailə köhnə avtobusdan ev düzəldib



Böyük Britaniyada yaşayan gənc cütlük Tom və Kayli köhnə, lazımsız avtobusdan təkər üzərində əsl ev düzəldiblər. Novate.ru saytında yazılan məlumata görə, 23 ildir ölkə sakinlərini gəzdirən avtobus artıq bir müddət idi lazımsız bir əşya kimi maşın qəbiristanlığına atılmışdı.

Avtobusun özü ailəyə 1500 funt sterlinqə başa gəlsə də, onun ev halına salınması üçün daha çox xərc çəkilib. İndi burada yaşamaq üçün bütün zəruri şərait yaradılıb. Avtobus-evdə Avropanın yarısını gəzən gənclər onu 12 min funt sterlinqə satmaq qərarına gəliblər.

## Maraqlı iddia: Pişiklər sahiblərinin aynasıdır



Bəlkə də siz sevimli ev heyvanınızın sizə və yaxud da ailənin digər üzvlərinə bənzədiyinə diqqət yetirmisiniz. Messina Universitetinin tibbi baytarlıq araşdırmaları göstərir ki, pişik və onun sahibinin oxşarlığı sadəcə xoş bir təsadüf deyil: pişiklər tədricən bizim alışqanlıqlarımızı mənimsəyirlər. Tədqiqatçılar ev pişiklərinin iki növünü araşdırıblar. Birinci qrup ev pişiklərinin sahibləri öz sevimlilərini kiçik evlərdə, özlərinə daha yaxın saxlayıb, demək olar ki, onları küçəyə çıxarmırdılar. İkinci qrup pişiklərin sahibləri isə, böyük və təmiz evlərdə yaşayıb, pişiklərinə hətta gecə belə küçəyə çıxmağa icazə verənlər olub.

Birinci qrup pişiklərin həyat tərzi, hətta yuxu vaxtı sahiblərinin həyat tərzinə oxşayır. Bundan başqa, öz yemək vaxtlarının nə vaxt olduğunu bilərək mətbəxə qaçır, tualetin yerini yaxşı bilir və dolabların qapısını asanlıqla aça bilirlər.

Aktiv həyat tərzi keçirən, idmanla məşğul olan insanların pişikləri daha aktiv, oynağan, passiv həyat sürən insanların pişikləri isə kökəlməyə yönümlü olur. Sakit olan insanların pişikləri əsasən sakit, aqressiv insanların isə aqressiv olur.

## ELAN

"32 inci" MMC-yə məxsus 2002975711 saylı şəhadətnamə (VÖEN) itdiyi üçün etibarsız sayılır.

## "Neftçi" "Sabah"ı məğlub edib



Mövsümün ikinci yarısı üçün hazırlıqlarını Bakıda davam etdirən "Neftçi" dünən yoxlama oyunu keçirib. SİA-nın məlumatına görə, "ağ-qaralar" birinci divizion təmsilçisi "Sabah"la qarşılaşıb. İsmət Qayıbov adına təlim-məşq bazasının meydanında keçirilən görüşün taleyini 1 qol həll edib. 73 dəqiqədə Emin Mahmudovun penaltidən vurduğu qol "Neftçi"yə qələbə qazandırıb.

## "Barselona" rekord sayda məğlubiyyətsiz oyun seriyası nümayiş etdirib



"Barselona" futbol üzrə İspaniya çempionatının 22-ci turunun Kataloniya derbisində səfərdə "Espanyol" komandası ilə heç-heçə oynayıb. AZƏRTAC xəbər verir ki, görüş 1:1 hesabı ilə başa çatıb. Meydan sahibləri Jerar Morenonun 66-cı dəqiqədə vurduğu qoldan sonra irəli çıxıblar. 82-ci dəqiqədə isə "Barselona"nı məğlubiyyətdən Jerar Pikenin topu xilas edib. Lionel Messinin komandası yeddi oyun davam edən qələbə seriyasını pozsa da, mövsümün startından ardıcıl olaraq məğlubiyyətsiz oyunun sayını rekord həddə - 22-yədək artırıb.

Komanda 2009/2010-cu il mövsümündə Xose Qvardiolanın rəhbərliyi altında 21 məğlubiyyətsiz oyun nümayiş etdirərək rekord müəyyən etmişdi. Hazırda isə "Barselona" öz rekordunu yeniləyib. Ölkə çempionatında komanda sonuncu dəfə 2017-ci ilin aprelində uduzub. 58 xal toplayan "Barselona" Premyer Liqanın turnir cədvəlində ikinci yerdə olan Madridin "Atletiko" komandasını 12 xal üstələyərək, lider olmaqda davam edir.

## Karateçilərimiz Avropa çempionatında dörd qızıl medal qazanıblar



Karateçilərimiz Rusiyanın Soçi şəhərində yeniyetmələr arasında 45-ci, 21 yaşadək gənclərin 10-cu Avropa çempionatında tarixi nəticə göstəriblər. Qazanılan altı medaldan dördü qızıl, biri gümüş və bürünc mükafatdır. AZƏRTAC xəbər verir ki, yarışın sonuncu günündə 21 yaşadək gənclərin mübarizəsində Hüseyn Əliyev (67 kq) qitə çempionu olub. Murad Hacızadə (84 kq) isə ardıcıl ikinci dəfə Avropa üçüncülüyünü qazanıb.

Yarışın ilk günü Tale Yaqubov (63 kq) və Polina Hurenko (47 kq), ertəsi gün 16-18 yaşlı gənclər arasında Hümmət Baxşəliyev (61 kq) qızıl medala sahib olub. Mədinə Sadıxova (48 kq) isə gümüş medala layiq görülüb. Roman Heydərov (kata), Aytac Əliyeva (55 kq) və Fəridə Əliyeva (67 kq) təsəllivərici görüşlərə qatılmaq imkanı əldə etsələr də, nəticədə medalsız qalıblar. Qırx dörd ölkədən 956 idmançının iştirak etdiyi Avropa çempionatında Azərbaycan 5-ci yeri tutub.

## "Sloveniya-2018": Azərbaycan millisi dörddəbir finalda Portuqaliya yığması ilə qarşılaşacaq



Sloveniyanın Lyublyana şəhərində təşkil edilən futzal üzrə Avropa çempionatının final mərhələsində iştirak edən Azərbaycan millisi fevralın 4-də "D" qrupunda sonuncu oyununu keçirib. AZƏRTAC xəbər verir ki, "Stojice Arena"da İspaniya ilə qarşılaşan komandamız 0:1 hesabı ilə məğlub olub.

İlk oyunda Fransa yığmasına 5:3 hesabı ilə qalib gələn millimiz mübarizəni dörddəbir final mərhələsində davam etdirəcək. Komandamızın rəqibi Portuqaliya millisi olacaq. Bu mərhələnin oyunları fevralın 6-da keçiriləcək.

## Neymar: "O günün tez gəlməsini istəyirəm"



Adı "Real"la yanaşı hallanan PSJ-nin futbolçusu Neymar Çempionlar Liqasında "Kral Klubu" ilə keçirəcəkləri oyunlarla bağlı danışıb. SİA-nın məlumatına görə, braziliyalı ulduz İspaniya klubu ilə oyunun tez gəlməsini arzuladığını bildirib: "Hamımız bu tip oyunlara əvvəlcədən hazırlaşırıq. "Real"a qarşı oynayacağım üçün həyacanlıyam. O günün tez gəlməsini istəyirəm". Qeyd edək ki, PSJ-yə 222 milyon avroya transfer olunan Neymar cari mövsümdə keçirdiyi 26 matçda 27 qol vurub və 16 məhsuldar ötürmə verib.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**